RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 71 (8664) CÜMƏ AXŞAMI, 8 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Ümumdünya Səhiyyə Təşkilatı İlham Əliyevin liderliyini alqışlayır

## Koronavirusa qarşı mübarizədə Azərbaycan təcrübəsi dünya miqyasında ən mükəmməl modellərdən biri kimi qəbul olunur

**Qlobal pandemiyanın ikinci ili dünyada səhiyyə sistemlərinə böyük təzyiq göstərməkdə davam edir. Genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə baxmayaraq, vəziyyəti sabitləşdirmək hələ ki mümkün deyil.**

### Qlobal pandemiyaya qarşı savaşda Azərbaycan reallığı

Bu bir həqiqətdir ki, koronavirus pandemiyası başlanandan etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti tərəfindən çox ciddi tədbirlər görülməklə yanaşı, regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır.

Ümumiyyətlə, pandemiyanın yayılmağa başladığı dövrdən Azərbaycan rəhbərliyi çevik qərarlarla, bu bəlanın törədə biləcəyi faciənin miqyası dəqiq təhlil edilməklə mübarizə tədbirlərinə başlayıb. Ölkənin səhiyyə sistemi qısa zamanda virusla mübarizəyə istiqamətləndirilib, xüsusi karantin rejimi tətbiq olunub, modul tipli xəstəxanalar inşa edilib, maska istehsalı fabriki açılıb, 20-dən çox müasir laboratoriya quraşdırılıb. Ölkəmizdə həm də yoluxmanın erkən aşkarlanması üçün xeyli sayda testlərin aparılması, koronavirusa yoluxmuş bütün xəstələrin xəstəxana şəraitində yüksək səviyyədə müalicə edilməsi də bu prosesin tərkib hissəsidir.

Bundan başqa, xüsusi karantin rejiminin tətbiq olunduğu zaman dövlət hər bir vətəndaşının yanında olub, onların problemlərinin həllinə dəstək göstərib, maddi yardım edib. İqtisadi sabitliyi, məşğulluqla bağlı problemləri həll etmək üçün sosial-iqtisadi dəstək paketi qəbul olunub. Ən nəhayət, vaksinasiya prosesinə başlanılıb. Bütün bu proseslər isə vətəndaş sağlamlığının qorunması faktorunun dövlət üçün prioritet olduğunu göstərdi və Prezident İlham Əliyevin birbaşa nəzarəti, təşəbbüskarlığı ilə pandemiyaya qarşı mübarizə tədbirləri, atılan ümumi addımlar həm də növbəti Azərbaycan təcrübəsini yaratdı.

Azərbaycan Prezidenti çıxışlarında, nitqlərində vurğulayır ki, pandemiyadan çıxış yolu yalnız qlobal həmrəylikdən, dünya dövlətlərinin ümumi səylərini birləşdirməsindən asılıdır. Təsadüfi deyil ki, pandemiyaya qarşı mübarizədə ölkələrin birgə fəaliyyəti, çoxtərəfli əməkdaşlıq təklifini də məhz İlham Əliyev irəli sürmüşdü. Prezidentin BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsünün dünyanın 130-dan çox ölkəsi tərəfindən dəstəklənməsi də bunun bariz nümunəsidir.

Ötən ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyasına həsr olunan xüsusi sessiyasında İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi çıxış edərək bütün ölkələri bu mübarizədə həmrəyliyə çağırdı, birtərəfli addımlar atılmamasının, peyvəndin bütün ölkələrin xalqları üçün əlçatan olmasının vacibliyini önə çəkdi.

İlham Əliyevin təşəbbüsü ilə bu problemin aradan qaldırılması istiqamətində daha bir uğurlu addım bu ilin mart ayında atıldı. BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edildi. Bununla da Azərbaycan növbəti dəfə qlobal həmrəyliyə öz töhfəsini verdi. Ölkə rəhbəri İlham Əliyevin digər dövlətlər tərəfindən qəbul edilərək yüksək qiymətləndirilən daha bir təşəbbüsü vaksinlərin ədalətsiz və qeyri-bərabər paylanmasının aradan qaldırılması ilə bağlı oldu.

### Azərbaycanın göstərdiyi siyasi və mənəvi dəstək

Bu gün də Ümumdünya Səhiyyə Təşkilatı İlham Əliyevin bu prosesdəki fəaliyyətini alqışlayır və koronavirusa qarşı mübarizədə Azərbaycan təcrübəsi dünya miqyasında ən mükəmməl modellərdən biri kimi qəbul olunur.

Aprelin 1-də ÜST-ün baş direktorunun təşəbbüsü ilə İlham Əliyevlə Tedros Adhanom Gebreyesusun videokonfrans formatında görüşü və aprelin 6-da bu təşkilatın İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil-qərargahında Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş tədbirində səslənən fikirlər də deyilənləri bir daha təsdiqlədi.

*Ardı 3-cü səh.*

# Ağcabədi rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.9-cu yarımbəndində göstərilmiş 13,6 milyon (on üç milyon altı yüz min) manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2021-ci il*

# Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Azərbaycan Prezidentinə təşəkkür edib

**Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus şəxsi "Twitter" hesabında aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümumdünya Sağlamlıq Günü münasibətilə videomüraciətindəki çağırışları ilə bağlı paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, ÜST-ün baş direktoru paylaşımında Azərbaycan Prezidentinə təşəkkür edərək qeyd edib: "BMT-nin İnsan Hüquqları Şurasında ədalətli, əlverişli, vaxtında və universal şəkildə COVID-19 peyvəndlərinə çıxışın əldə olunması ilə bağlı çağırışdakı liderliyinizə görə Prezident Əliyev, Sizə təşəkkür edirəm. Razıyam ki, biz vaksinlərin ədalətli paylanmasını təmin etmək, peyvənd və sağlamlığın təminatı üçün birlikdə daha çox iş görməliyik".

# Prezidentin tələbi: meliorasiya və su təsərrüfatı müasir idarəetmə sisteminə keçməlidir

Prezident İlham Əliyev Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri vəzifəsinə yeni təyin olunan Zaur Mikayılova ilk tapşırığını verdi: "Əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, biz bu sahəyə müasir menecment gətirməliyik. Mən sizi bu vəzifəyə təyin edərkən məhz bu amili nəzərə almışam ki, hər bir yerdə müasir menecment olmalıdır, idarəetmə olmalıdır".

Dövlət başçısı videoqəbuldakı çıxışında meliorasiya sahəsini daim şəxsi nəzarətində saxladığını bildirmiş, görülən işləri müsbət qiymətləndirməklə yanaşı, perspektivləri də nəzərə çatdırmışdır. Bu bir daha təsdiqləyir ki, Prezident İlham Əliyev sovet dönəmindən qalan meliorasiya sistemlərinin dəyişdirilməsində, bütünlüklə ölkənin meliorasiya və su təsərrüfatı sistemlərinin müasirləşdirilməsində, nəhəng layihələrin həyata keçirilməsində islahatçı lider kimi çıxış edir. Nəticədə Azərbaycanın bütün şəhərlərinin içməli su ilə təchizatında dönüş yaranmış, yüz min hektarlarla torpaq sahələri suvarma suyu ilə təmin edilmişdir.

*Ardı 5-ci səh.*

# Hədəf daxili tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etməkdir

## Bunun səmərəli yolu isə məhsuldarlığın artırılmasıdır

Dövlətin aqrar sektorun inkişafına xüsusi diqqət yetirməsinin ölkədə ərzaq təhlükəsizliyinin təminatına xidmək etməklə yanaşı, bir sıra digər səbəbləri də var.

Onların sırasında ən başlıcası odur ki, kənd təsərrüfatı iqtisadiyyatın bir çox sahələrinin tərəqqisində aparıcı əhəmiyyətə malikdir, başqa sözlə desək, lokomotiv rolunu oynayır.

Məsələn, aqrar sahə emal, yüngül və toxuculuq sənayelərinin xammal bazasıdır. Bu sektorun inkişafı isə ölkə iqtisadiyyatını gücləndirməkdən əlavə, geniş bir coğrafiyada insanların sosial rifahının yaxşılaşmasına, o cümlədən məşğulluğun artmasına təkan verir.

Kənd təsərrüfatının mühüm sahələrindən biri heyvandarlıqdır. Əhalinin ət və süd məhsulları ilə təminatı məhz bu sahənin inkişafı ilə bağlıdır. Məlumdur ki, uzun illər ərazilərimizin məlum hissəsinin işğal altında olması, həmçinin daha məhsuldar cins mal-qaradan istifadə edilməməsi səbəbindən ölkədə ət və süd məhsullarına tələbat yerli istehsal hesabına tam ödənilmir.

*Ardı 5-ci səh.*

# Sahibi "tapılmayan" "İsgəndər"

## Onun ixrac modifikasiyası olmaması suallar doğurur



Vətən müharibəsində Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində darmadağın edilən, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilən işğalçı Ermənistan növbəti hərbi cinayətlərini törətmişdi.

Məğlubiyyətin əvəzini çıxmaq, xof yaratmaq üçün Tərtər, Bərdə, Goranboy, Beyləqan, Ağdam, Ağcabədi rayonları hər gün artilleriya və raket atəşinə tutulmuşdu. Düşmən bu zaman qadağan olunmuş kasetli bombalardan istifadə etməkdən də çəkinməmişdi. Cəbhə xəttindən uzaqda yerləşən Gəncəyə ballistik zərbə endirilməsi bir daha Ermənistanın terrorçu mahiyyətini ortaya qoymuşdu.

Son günlər Azərbaycanda gündəmi zəbt edən başqa bir məsələ isə Şuşa şəhərinin ətrafında "İsgəndər" Operativ-Taktiki Raket Kompleksinin qalıqlarının tapılmasıdır. Qalıqlar Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən mart ayının 15-də ərazilərin minalardan təmizlənməsi zamanı aşkar edilib. Bu məsələ bəlkə də Azərbaycan ictimaiyyətində geniş əks-səda doğurmaya da bilərdi. Məlum olduğu kimi, ilk dəfə hələ ötən ilin noyabrında Ermənistan silahlı qüvvələrinin baş qərargahının keçmiş rəisi Movses Akopyan müharibənin son günlərində "İsgəndər" raketlərindən istifadə edildiyini bildirmişdi.

*Ardı 4-cü səh.*

# Paşinyan hərbi xuntanı birdəfəlik sıradan çıxarır

## Məğlub olacağını bilən Robert Koçaryan isə qiyama hazırlaşır

**Ermənistanda siyasi müstəvidə müşahidə edilən qütbləşmə getdikcə dərinləşməkdə, bu kontekstdə iqtidar və müxalifət arasında münasibətlər tam ziddiyyətli xarakter almaqdadır.**

Tərəflərin bir-birilərinə qarşı kompromat xarakterli hücumlarının artması, gözdənsalma kampaniyasını genişləndirmələri vəziyyəti daha kritik həddə çatdırır. Hadisələrin inkişafı iyunda baş tutacaq növbədənkənar parlament seçkilərində mövcud hakimiyyətlə keçmiş hərbi xunta arasında sərt mübarizənin gedəcəyini göstərir. Sabiq prezident Robert Koçaryan artıq seçkidə mövcud hakimiyyəti devirmək üçün ciddi hazırlıqlara start verib. Hakimiyyət isə sabiq prezidentin neytrallaşdırılması üçün inzibati metodlardan istifadə etməyi düşünür.

*Ardı 4-cü səh.*



# Koronavirusdan xilas olmaq üçün mübarizə davam edir

Statistik göstəricilər hələ də ürəkaçan deyil. Dünyada koronavirusa yoluxanların və həyatını itirənləri sayı getdikcə artır. Yoluxma sayına görə ilk beşlikdə olan dövlətlər ABŞ, Braziliya, Hindistan, Fransa və Rusiyadır.

Sərhəd qonşularımız arasında koronavirusdan ən çox ölüm halları Rusiyadan sonra ardıcıl olaraq İranda və Türkiyədə qeydə alınıb. Həmçinin digər qonşu ölkələrdə - Gürcüstanda və Ermənistanda da koronavirusla bağlı statistik göstəricilər yüksəkdir.

Son günlər ölkəmizdə də bu təhlükəli infeksiyaya yoluxma və ölüm halları artıb. Azərbaycan hökuməti koronavirusa qarşı mübarizə tədbirlərini səylə davam etdirir. Mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq aprelin 5-dən etibarən tədrisin təşkili ilə bağlı yeni normaların tətbiqi bununla əlaqədardır. Belə ki həmin tarixdən Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərləri və Abşeron rayonunun ümumtəhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin distant formada təşkili həyata keçirilir.

Digər şəhər və rayonlara gəlincə, burada da tədris sanitariya-gigiyena tələblərinə əməl edilməklə qismən əyani formada davam etdirilir.

*Ardı 7-ci səh.*

# Milli Məclisin sədri Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri ilə görüşüb



**Aprelin 7-də Milli Məclisin sədri Sahibə Qafarova Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahimlə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, sədr qonağı səmimi salamlayaraq, Misirin Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biri olduğunu vurğulayıb. O, ölkəmizin Misirlə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə əhəmiyyət verdiyini bildirərək, tərəflər arasında imzalanmış sənədlərin əməkdaşlığın daha da dərinləşməsinə müsbət töhfələr verdiyini qeyd edib.

İki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlığın əhəmiyyətini bildirən Sahibə Qafarova deyib ki, Milli Məclisdə Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Görüşdə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi böyük Qələbə haqqında da məlumat verilib. Bildirilib ki, Azərbaycan bu Qələbə nəticəsində Ermənistanın işğal altında saxladığı torpaqlarımızı azad edərək, öz ərazi bütövlüyünü və ədaləti bərpa edib. Bununla da ölkəmiz üçün yeni mərhələnin başlandığını diqqətə çatdıran Sahibə Qafarova vurğulayıb ki, hazırda qarşıda duran əsas məqsədlərdən biri azad olunmuş ərazilərimizin ən yüksək səviyyədə yenidən qurulması, şəhər və rayonlarımızın bərpa edilməsidir.

Görüşdə qeyd olunub ki, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında 30 il ərzində böyük dağıntılar, vandalizm aktları törədib, şəhərləri, evləri, kəndləri, tarixi, mədəni və dini abidələri, bütün infrastrukturu tamamilə dağıdıb, talan ediblər. Ermənistan həmçinin həmin əraziləri minalayıb və bu gün bütün çağırışlara baxmayaraq, beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozmaqda davam edir, minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verməkdən imtina edir. Bunun nəticəsi olaraq müharibədən sonra bir çox azərbaycanlı mülki şəxs və hərbçi minaya düşərək həlak olub və yaralanıb. Sahibə Qafarova həmin xəritələrin Azərbaycan tərəfinə verilməməsinin hərbi cinayət olduğunu vurğulayıb.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahim ölkəmizdə fəaliyyət göstərməsindən məmnunluğunu ifadə edib. O, Azərbaycanın bütün sahələrdə böyük nailiyyətlər qazandığını və inkişaf etdiyini vurğulayaraq, hər iki ölkə rəhbərliyinin dəstəyi ilə ölkələrimiz arasında əlaqələrin daha da dərinləşdiyini bildirib.

Səfir iki ölkənin parlamentləri arasında əlaqələrin səviyyəsindən məmnunluğunu qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin komitələrinin onlayn iclası olub




Aprelin 7-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) iki komitəsinin növbəti iclasları onlayn formatda keçirilib. Hər iki videokonfransda quruma üzv ölkələrin nümayəndə heyətlərinin üzvləri iştirak ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Hüquqi və siyasi məsələlər komitəsinin 57-ci iclası olub. Tədbirdə Milli Məclisi QDİƏT PM sədrinin müavini və qurumdakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyev və nümayəndə heyətinin üzvü Jalə Əhmədova təmsil ediblər.

Onlayn tədbirdə iclasın gündəliyi və komitənin ötən ilin oktyabrında keçirilmiş 56-cı toplantısının protokolu təsdiqlənib.

Sonra "İnsan alveri ilə mübarizədə parlamentlərin rolu: hüquqi aspektlər" mövzusunda məruzə dinlənilib, tövsiyə layihəsi təqdim olunub. Hər iki təqdimatda COVID-19 pandemiyasının yaratdığı vəziyyətə də toxunulub.

Milli Məclisin deputatı Jalə Əhmədova müzakirədə çıxış edərək insan alverinə qarşı mübarizə sahəsində ölkəmizdə görülən işlərdən danışıb. Yekunda məruzə və tövsiyə layihələri təsdiqlənib.

Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin 56-cı iclasında QDİƏT PM-dəki Azərbaycan nümayəndə heyətinin üzvlərindən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və deputat Ramin Məmmədov iştirak ediblər.

İclasda gündəlik qəbul olunduqdan sonra komitənin ötən ilin oktyabrında keçirilmiş 55-ci iclasının protokolu təsdiqlənib. Videokonfransda "İnsan alveri ilə mübarizədə parlamentlərin rolu: sosial aspektlər" mövzusunda məruzə dinlənilib, tövsiyə layihəsi təqdim olunub. Mövzu ətrafında geniş müzakirə aparıldıqdan sonra məruzə və tövsiyə layihələri təsdiqlənib. İclasda təşkilati məsələlərə baxılıb, Zoltan Pek (Serbiya) komitə sədrinin müavini seçilib.

Hər iki komitənin iclasında QDİƏT Parlament Məclisinin baş katibi Asəf Hacıyev çıxış edib və nümayəndə heyətlərini maraqlandıran məsələlərə aydınlıq gətirib.

# Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələr ən yüksək səviyyədədir



Baş prokuror Kamran Əliyev Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoralla diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hazırda dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin ən yüksək səviyyədə olması məmnunluqla vurğulanıb. Baş prokuror bildirib ki, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələri strateji əməkdaşlıq səviyyəsində olmaqla dünya ölkələrinə nümunədir.

Baş prokuror qeyd edib ki, 2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqı ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdirməklə bir millət, iki dövlət olduğumuzu bir daha bütün dünyaya nümayiş etdirib.

İkitərəfli münasibətlərimizin möhkəmləndirilməsi işinə verdiyi töhfəyə görə səfirə təşəkkürünü bildirən baş prokuror gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Səmimi görüşə və xoş sözlərə görə minnətdarlığını ifadə edən səfir Erkan Özoral bundan sonrakı fəaliyyətində də ikitərəfli əlaqələrin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

# "Azərbaycan üzrə 2021-2025-ci illər üçün yeni Ölkə Proqramı"nın müzakirəsi keçirilib

Aprelin 7-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Bahar Muradova BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəsi Edvard Karvardinlə görüşüb.

AQUPDK-nın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı "Azərbaycan üzrə 2021-2025-ci illər üçün yeni Ölkə Proqramı"nın müzakirəsi keçirilib.

Görüş təşəbbüsünə görə təşəkkürünü bildirən Dövlət Komitəsinin sədri Bahar Muradova deyib ki, döyüşlərin getdiyi dövrdə keçirilən görüşlərdə narahatlıqla müharibənin çətinlikləri haqqında danışırdıqsa, bu gün Qələbədən doğan qürur hissi ilə böyük quruculuq işlərinin həyata keçirildiyi ərəfədəyik. "Siz də bütün baş verən bu hadisələrə biganə qalmadınız, belə hadisələrdən əziyyət çəkən uşaqların hansı bəlalarla üzüzə gəldiyinin canlı şahidi oldunuz. Beynəlxalq təşkilatın nümayəndələri olaraq vaxtaşırı işğaldan azad edilmiş ərazilərə gedirsiniz və hər şeyi öz gözlərinizlə görürsünüz. Münaqişədən əziyyət çəkən uşaqlarla əlaqədar olaraq BMT-nin Uşaq Fondu, Dövlət Komitəsi və ictimai təşkilatlarla birgə həyata keçirilən tədbirlər, xüsusilə zərərçəkənlərin qiymətləndirilməsi və onlarla aparılan psixososial işi xüsusi vurğulamaq istərdim. Pandemiya və hərbi vəziyyət dövründə yüksəksəviyyəli əməkdaşlıq nümayiş etdirdiniz və əminəm ki, bundan sonrakı birgə fəaliyyətimiz də bu qaydada davam edəcəkdir", - deyə komitə sədri vurğulayıb.

Müharibədən sonrakı dönəmdə əsas məqsədin sülh və dayanıqlılığı təmin etmək, müharibədən zərərçəkən insanların, qadın və uşaqların problemlərinin sürətli şəkildə həll edilməsi olduğunu deyən komitə sədri bildirib ki, bizim borcumuz həmin insanların həyat və rifahını yaxşılaşdırmaqdır. İşğaldan azad edilmiş torpaqlarda insanların yaşayışı üçün şəraitin təmin edilməsinə daha artıq zaman, məsrəf və güc tələb olunur. Çünki indi hər qarış torpağa basdırılan minalar ərazilərimizdən qovulan Ermənistan qoşunlarından qat-qat artıq təhlükə yaradır. Bu, Ermənistan tərəfindən təcavüzün davam etdirilməsinə və vətəndaşlarımızın bu əraziyə qaytarılması üçün həyata keçiriləcək bərpa və quruculuq işlərinin əngəllənməsinə yönəlib.

Son 6 ayın Azərbaycan üçün tarixi bir dövr olduğunu bildirən Edvard Karvardin növbəti 5 il ərzində həyata keçirilən fəaliyyətlərlə əlaqədar ölkə üzrə yeni proqramın qəbul edildiyini diqqətə çatdırıb. Ötən il qəbul olunmuş Uşaq Strategiyası və Milli Fəaliyyət Planı haqqında fikirlərini bölüşən BMT rəsmisi deyib ki, UNICEF fəaliyyət planında qeyd edilən məsələlərlə bağlı prosesə texniki dəstək verməyə hazırdır. Təşkilat konkret olaraq planın icrasına, onun monitorinqi ilə əlaqədar bütün aidiyyəti qurumlarla əməkdaşlığa önəm verir. O, bu fəaliyyət planının digər dövlətlərdə də uşaqlar üçün vacib olan perspektivli fəaliyyətin standartı kimi çıxış edəcəyinə inandığını vurğulayıb. Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərindən (DİM) irəli gələn məsələlərlə bağlı üzərinə birmənalı olaraq aydın öhdəliklər götürdüyünü vurğulayan BMT rəsmisi bildirib ki, adıçəkilən sənədlər DİM-lə uzlaşır.

Proqramda əhatə olunan məsələlər haqqında məlumatları diqqətə çatdıran E.Karvardin bildirib ki, bu gün vacib məsələlərdən biri də ictimaiyyətin diqqətini erkən uşaqlıq dövründə uşaq inkişafına və pozitiv valideynlik məsələsinə yönəltməkdir. Eyni zamanda regionlarda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək mərkəzlərinin xidmətlərinin daha da inkişafı, yeni imkanların tətbiqi də mühüm əhəmiyyət kəsb edir. O vurğulayıb ki, müharibədən sonrakı mərhələdə zərərçəkmiş uşaqlara psixososial işin gücləndirilməsi və daha da genişləndirilməsi, eləcə də pandemiyanın yaratdığı fəsadlar səbəbindən cəmiyyətdə artan mənfi halların qarşısının alınmasında dəstəyin göstərilməsi də nəzərdə tutulan məsələlər sırasındadır.

Bir sıra ölkələrdə uşaqlar üçün münasib icmanın formalaşması modelinin mövcud olduğunu qeyd edən E. Karvardin işğaldan azad olunmuş Azərbaycan ərazilərində də uşaq və gənclər üçün uyğun mühitin yaradılması ilə bağlı hazırladığı konseptual sənədi tanış olması və qiymətləndirməsi üçün Bahar Muradovaya təqdim edib.

Komitə sədri təkliflər paketi ilə çıxış etdiyinə görə E. Karvardinə təşəkkürünü bildirib, yaxın gələcəkdə görüləcək işləri yüksək qiymətləndirərək, Komitənin üzərinə düşən öhdəlikləri yerinə yetirməyə hazır olduğunu vurğulayıb. Zorakılıq və intihar hadisələri ilə bağlı yayımlanan informasiyaların daha çox təşviqetmə və yönləndirmə xarakteri daşıdığına diqqət çəkən komitə sədri nəticədə zəncirvari silsilə hadisələrin baş verdiyini və bunun qarşısını almaq üçün birgə çağırışlarla ictimaiyyətə müraciət etməyin faydalı olacağını bildirib.

Görüş "Azərbaycan üzrə 2021-2025-ci illər üçün yeni Ölkə Proqramı"ndan irəli gələn məsələlər istiqamətində görüləcək tədbirlərin müzakirəsi ilə davam edib.

# Türkiyənin Azərbaycandakı səfirinin diplomatik fəaliyyəti başa çatır

Aprelin 7-də xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov iki qardaş ölkə arasında mövcud olan ən yüksəksəviyyəli münasibətlərin inkişafında səfir qismində Erkan Özoralın rolunu məmnunluqla qeyd edərək, bu xüsusda verdiyi töhfəyə görə ona təşəkkürünü bildirib.

Azərbaycan ilə Türkiyə arasında mövcud olan yüksəksəviyyəli münasibətlərin, eyni zamanda səfirlərin üzərinə böyük məsuliyyət qoyduğunu bildirən nazir Ceyhun Bayramov Azərbaycandakı diplomatik fəaliyyəti müddətində səfir Erkan Özoralın bu önəmli vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəldiyini və ölkəmiz üçün tarixi bir dövrdə qardaş Türkiyənin elçisi qismində uğurla fəaliyyət göstərdiyini vurğulayıb.

Səfir Erkan Özoral Azərbaycanı Türkiyədən ayırmadığını və bunun hər zaman belə olacağını bildirib. O, Azərbaycan üçün çox önəmli bir dövrdə ölkəmizdə səfir qismində çalışmaqdan qürur hissi keçirdiyini söyləyib, diplomatik fəaliyyəti dövründə ona göstərilən yüksək diqqətə və əməkdaşlığa görə təşəkkürünü ifadə edib. Ölkələrimiz arasında səfərlər üçün viza tələbinin aradan qaldırılmasını və vətəndaşlarımızın təkcə şəxsiyyət vəsiqəsi ilə səfər edə biləcəklərini məmnunluqla vurğulayan səfir bunu ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin təzahürü kimi qiymətləndirib.

Nazir Ceyhun Bayramov Erkan Özoralın növbəti vəzifəsinin də öhdəsindən yüksək peşəkarlıqla gələcəyindən əminliyini ifadə edib və səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# İtaliya mətbuatı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mina təhlükəsinə dair məqalələr yayıb

İtaliyanın "Politicamente Corretto", "Askanews", "Agenzia Nova", "Yahoo Notizie", "KmetroO" kimi kütləvi informasiya vasitələrində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mina təhlükəsi barədə məqalələr dərc edilib.




AZƏRTAC xəbər verir ki, məqalələrdə Beynəlxalq Mina Xəbərdarlığı və Minalara Qarşı Mübarizə Günü münasibətilə ADA Universitetində təşkil olunmuş tədbirdə səsləndirilmiş fikirlərə geniş yer verilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev tədbirdə çıxış edərək Ermənistanın Azərbaycan ərazilərində basdırdığı minaların mülki əhalinin təhlükəsizliyi, sağlamlığı və həyatı üçün ciddi bir təhlükə yaratdığını, eləcə də sosial-iqtisadi inkişafa mane olduğunu vurğulayıb.

H. Hacıyev bildirib ki, ölkələr tərəfindən minalara qarşı mübarizə şəraitinin yaradılması və səylərin inkişaf etdirilməsi məsələsi çox vacib əhəmiyyət kəsb edir. Bu, xüsusən də, minalardan zərər çəkmiş ölkələrə aiddir. Təəssüf ki, Azərbaycan minalardan zərər çəkmiş ölkələr kateqoriyasına daxildir. Həmçinin vurğulanıb ki, hərbi əməliyyatlar zamanı və ya hərbi vəziyyətlərdə mülki şəxslər hədəfə alınmamalıdır.

Prezidentin köməkçisi eyni zamanda vurğulayıb ki, azad olunmuş ərazilərdə qalan hər bir mina Ermənistan tərəfindən Azərbaycan vətəndaşlarına və mülki əhaliyə təhdid təşkil edir. Hikmət Hacıyev xüsusi qeyd edib ki, minaların yaratdığı əlillik ağır fəsadlarla müşayiət olunur, qurbanlar, onların ailələri və ümumilikdə cəmiyyətin rifahına mənfi təsir göstərir. Minaların qurbanları ölçüyəgəlməz dərəcədə fiziki ağrı, psixoloji və emosional zədə alırlar. Piyada əleyhinə minalar Ermənistan tərəfindən məqsədyönlü qisas strategiyasının bir hissəsi kimi mülki əhalini terrora məruz qoymaq və təxminən 30 ildən bəri davam edən etnik təmizləmə siyasətinin nəticələrinin aradan qaldırılmasını əngəlləmək üçün istifadə olunur.

Ermənistanın minalanmış ərazilərin xəritələrini təhvil verməməsi məsələsinə də toxunan Prezidentin köməkçisi diqqətə çatdırıb ki, Ermənistanın xəritələri verməkdən imtina etməsi də iki ölkə arasında sülh və etimadın yaranmasına mənfi təsir göstərir, ölkələr arasında, eyni zamanda bölgədəki sabitliyi və əmin-amanlığı əngəlləyir. İşğaldan azad edilmiş ərazilərə səpələnmiş minalar sosial-iqtisadi inkişafa mane olur və 2030-cu ilədək davamlı inkişaf proqramı çərçivəsində Azərbaycanın hədəflərinə çatmaq üçün ciddi maneə törədir. Hazırda Azərbaycanın azad edilmiş ərazilərini minalardan və digər partlayıcı qurğulardan təmizləmək Azərbaycan hökumətinin əsas prioritetlərindən biridir.

Sonda Hikmət Hacıyev diqqətə çatdırıb ki, minaların basdırılması çətin olmasa da, onların çıxarılması son dərəcə ləng, təhlükəli və bahalı bir işdir.

# Moskvada RAGB-AMOR fəalları ilə görüş

Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB-AMOR) sədri Leyla Əliyevanın təşəbbüsü əsasında Milli Məclisin deputatı Emin Hacıyev təşkilatın fəalları ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, RAGB-nin Moskva ofisində baş tutan görüşdə Rusiyanın müxtəlif ali məktəblərində fəaliyyət göstərən azərbaycanlı tələbə təşkilatlarının sədrləri və Gənclər Birliyinin əməkdaşları iştirak ediblər.

Milli Məclisin deputatı Emin Hacıyev RAGB-nin sədri Leyla Əliyevanın adından gəncləri salamlayaraq, təşkilatın yaranma tarixindən danışıb. O bildirib ki, Rusiyada RAGB-nin 70-dən çox regional bölməsi fəaliyyət göstərir. Onların fəaliyyət dairəsi səhiyyə, təhsil və elm, mədəniyyət və ekologiya kimi müxtəlif istiqamətləri əhatə edir. RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə Rusiyanın bütün regionlarında 1990-cı ilin qanlı 20 Yanvar hadisələri, 1992-ci ilin Xocalı soyqırımı ilə bağlı "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində anım mərasimləri keçirilir. Gənclər mədəni-kütləvi, idman və xeyriyyə aksiyalarına, o cümlədən Heydər Əliyev adına kubok uğrunda ənənəvi illik minifutbol turnirinə, "Nə? Harada? Nə zaman?" intellektual oyununa, "Qanın milləti yoxdur" xeyriyyə aksiyasına həvəslə qatılırlar. Hər il təhsildə fərqlənən gənclər "AMOR təqaüdü"nə layiq görülürlər. Böyük Vətən müharibəsində Qələbənin ildönümlərində RAGB gəncləri faşizmə qarşı mübarizədə qəhrəmanlıq göstərmiş azərbaycanlıların həyat və döyüş yolu barədə danışırlar.

"Bütün Azərbaycan xalqı kimi, Rusiyada yaşayan və təhsil alan soydaşlarımızın da ən böyük problemi, əlbəttə ki, Qarabağ münaqişəsi idi. RAGB fəalları təşkil olunan hər bir görüşdə, hər tədbirdə Qarabağ münaqişəsinin başvermə səbəbləri, xalqımızın haqq işi barədə rusiyalıları məlumatlandırır, bu münaqişənin ədalətli həllinə çağırırdılar. Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan "Xocalıya ədalət!" məlumatlandırma kampaniyası çərçivəsində görülən işlər nəticəsində Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdıra bildik. Dövlətimiz güclü, peşəkar ordu yaratdı və 44 günlük Vətən müharibəsi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi qüdrətli Silahlı Qüvvələrimizin şanlı Qələbəsi ilə başa çatdı. Mən sizi bir daha xalqımızın bu böyük Qələbəsi münasibətilə təbrik edirəm", - deyə E.Hacıyev bildirib.

Deputat ölkəmizdə siyasi, iqtisadi, humanitar sahələrdə görülən işlərdən danışıb, işğaldan azad edilmiş torpaqlarda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan böyük quruculuq işləri, Azərbaycanda gənclər siyasəti sahəsində həyata keçirilən layihələr barədə məlumat verib.

Sonda deputat Emin Hacıyev RAGB fəallarını maraqlandıran sualları cavablandırıb.

# Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı verib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, başsağlığında deyilir: "Qardaş Türkiyə Silahlı Qüvvələrinə məxsus hərbi təyyarənin Konya şəhərində qəzaya uğraması nəticəsində pilotun həlak olması xəbəri məni çox kədərləndirdi. Sizin acınız bizim də acımızdır.

Şəhid hərbi qulluqçuya rəhmət diləyir, onun yaxınlarının dərdinə şərik olur, ailəsinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

# Kəşfiyyat bölmələri ilə döyüş hazırlığı üzrə məşğələlər keçirilir

Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, peşəkarlıq səviyyəsinin artırılması məqsədilə kəşfiyyat bölmələri ilə müvafiq məşğələlər keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, praktiki dərslərdə əsas diqqət Vətən müharibəsində qazanılan təcrübə nəzərə alınmaqla, kəşfiyyatçıların gündüz və gecə vaxtı, məhdud görünüş və istənilən hava şəraitində, dağlıq və digər mürəkkəb relyefli ərazilərdə fəaliyyətinin təkmilləşdirilməsinə yönəlib.

# Azərbaycan və Türkiyə müdafiə nazirləri hər iki ölkə ordularının avtomatlaşdırılmış idarəetmə sistemlərinin birgə fəaliyyətlərini izləyiblər

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Azərbaycan və Türkiyə hərbi qulluqçularının iştirakı ilə rabitə qoşunlarının birgə taktiki-xüsusi təlimləri davam edir.**









Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərin növbəti mərhələsini izləmək məqsədilə aprelin 7-də təlim-döyüş tapşırıqlarının yerinə yetirilməsi rayonuna gələn müdafiə naziri general-polkovnik Zakir Həsənov ərazidə açılmış səhra idarəetmə məntəqələrində olub, təlimin təşkili və gedişi ilə maraqlanıb. Müdafiə nazirinə bölmələrimizin sərəncamındakı taktiki-strateji səviyyədə olan ən müasir rabitə avadanlıqları təqdim edilib.

Məruzə edilib ki, təlimlərdə vahid rabitə sisteminin təşkili üzrə tapşırıqlar uğurla icra olunur. Müdafiə naziri Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları və Xüsusi Təyinatlı Qüvvələrin komanda-idarəetmə məntəqələri ilə əlaqə saxlayıb, rabitənin dayanıqlılığını və fasiləsizliyini yoxlayıb. General-polkovnik Z.Həsənov Şuşa, Laçın, Kəlbəcər, həmçinin azad edilmiş digər ərazilərdə dislokasiya olunan birlik və birləşmələrin qərargahları ilə videokonfrans rejimində əlaqə saxlayıb, təlimlərin gedişi ilə bağlı müvafiq tapşırıqlar verib.

Sonra təlimin idarəetmə məntəqəsində Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun Türkiyənin milli müdafiə naziri Hulusi Akarla birbaşa videobağlantısı baş tutub. Hər iki ölkənin müdafiə nazirləri təlim iştirakçılarına müraciət edərək onlara uğurlar arzulayıblar. Videobağlantı zamanı müdafiə nazirləri rabitə qoşunlarının qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, qoşunlar arasında vahid rabitə və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təşkili, həmçinin bu sahədə birgə tədbirlərin davam etdirilməsinin vacibliyini bildiriblər.

Eyni zamanda müdafiə nazirləri Azərbaycan və Türkiyə ordularının bütün qoşun növləri arasında əməliyyat uyğunluğunun təkmilləşdirilməsi, birgə əməliyyat planlarının işlənilməsi, bölmələr arasında döyüş uzlaşmasının inkişaf etdirilməsi və digər fəaliyyətləri dəyərləndiriblər.

Təlimlər davam edir.

# Ümumdünya Səhiyyə Təşkilatı İlham Əliyevin liderliyini alqışlayır

## Koronavirusa qarşı mübarizədə Azərbaycan təcrübəsi dünya miqyasında ən mükəmməl modellərdən biri kimi qəbul olunur

*Əvvəli 1-ci səh.*



Baş direktor Azərbaycanın təşkilata bütün sahələrdə, o cümlədən maliyyə sahəsində 10 milyon dollar dəyərində etdiyi yardımı yüksək qiymətləndirərək ölkəmizin ÜST-ə siyasi və mənəvi dəstəyinin çox dəyərli olduğunu qeyd etdi.

Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş tədbirdə videomüraciəti yayılan İlham Əliyev pandemiya ilə mübarizə tədbirləri çərçivəsində görülən ümumi işlərlə bağlı reallıqları qiymətləndirdi.

Öncə Azərbaycan səhiyyə sisteminin mövcud durumunu dəyərləndirən Prezident vurğuladı ki, hazırda ölkəmizin səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan icbari tibbi sığorta tətbiq etməklə ilkin tibbi yardımı gücləndirir, təcili tibbi yardım xidmətlərini yeniləyir, ölkədə elektron səhiyyə platforması və dövlət səhiyyə hesablarını istifadəyə verməklə rəqəmsallaşmanı təmin edir.

Azərbaycanın pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk dövlətlərdən biri olduğunu deyən Prezident ölkəmizin təşəbbüsü ilə reallaşan tədbirlərin əhəmiyyətini və respublikamızın beynəlxalq məsuliyyətinə sadiq olaraq ÜST-ə, eləcə də 30-dan çox ölkəyə könüllü humanitar və maliyyə yardımı göstərdiyini diqqətə çatdırdı.

### Peyvəndləmə səviyyəsi baxımından MDB-də lider ölkə

Artıq bir neçə müddətdir ki, dünyada pandemiyaya qarşı mübarizə çərçivəsində vaksinasiya prosesinə start verilib. Cənubi Qafqazda ilk olaraq vaksinasiyaya başlayan ölkə də Azərbaycandır və peyvəndləmə səviyyəsi baxımından MDB-də lider mövqedədir. Ölkəmiz bu prosesə yanvarın 18-dən tibb işçilərinin vaksinasiyası ilə start verib və sonrakı mərhələdə risk qrupuna daxil olan əhali kateqoriyaları peyvənd edilib. Hazırda 40 yaşdan yuxarı olan əhali arasında könüllülük prinsipi ilə vaksinasiya işi aparılır.

Prezident bu prosesin də gedişatına toxunaraq peyvəndlərin ölkələr arasında qeyri-bərabər və ədalətsiz paylanması ilə bağlı bir daha narahatçılığını ifadə edib: "Bu mənada peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bununla belə, peyvəndlərin inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında qeyri-bərabər və ədalətsiz paylanması bizi dərindən narahat edir. Bəzi ölkələr ehtiyacı olduğundan dəfələrlə çox peyvənd tədarük edir. Aydındır ki, belə şəraitdə digər ölkələr peyvənd qıtlığı ilə üzləşəcək".

İlham Əliyev bir daha Azərbaycanın peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnaməni xatırladıb və Azərbaycanın COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biri olduğunu söyləyib. Eyni zamanda qeyd edib ki, Azərbaycan və bütün beynəlxalq ictimaiyyət bu təşəbbüsün pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəylik modeli olmasını gözləyir. Çünki bəşəriyyət pandemiyanın öhdəsindən yalnız birlikdə gəlməklə normal həyata qayıda bilər.

Azərbaycan Prezidentinin peyvəndlərə bərabərhüquqlu, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin olunması ilə bağlı BMT-nin İnsan Hüquqları Şurasında göstərdiyi liderliyi alqışlayan baş direktor Tedros Adhanom Gebreyesus peyvəndlərin ədalətli şəkildə paylanılması üçün ÜST tərəfindən daha çox işlərin görülməli olması ilə bağlı İlham Əliyevin fikirləri ilə razılaşdığını söyləyib.

Göründüyü kimi, Azərbaycan Prezidentinin qlobal liderlik missiyası beynəlxalq müstəvidə pandemiya ilə mübarizəyə birbaşa təkan verməyə istiqamətlənib. Bu missiya qlobal bəladan bütün ölkələrin minimum itkilərlə çıxması üçün dəqiq strategiya müəyyən edir. Ona görə də İlham Əliyevin bu istiqamətdə atdığı bütün addımlar, gördüyü işlər beynəlxalq səviyyədə təqdir olunur və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də nümunə kimi göstərilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində növbəti hərbi hissə xidməti-döyüş fəaliyyətinə başlayıb



Vətən müharibəsində düşmən üzərində tarixi Qələbənin əldə olunmasından sonra sərhəd mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili məqsədilə bu ərazilərdə qısa müddətdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması prosesi intensiv surətdə aparılmaqdadır.





Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, aprelin 6-da Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində növbəti hərbi hissə xidməti-döyüş fəaliyyətinə başlayıb.

Bu münasibətlə təşkil olunmuş mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Dövlət Sərhəd Xidməti (DSX) rəisinin müavini general-leytenant İlham Mehdiyev çıxış edərək DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Çıxışda Vətən müharibəsində düşmən üzərində tarixi qələbənin qazanılmasında şərəflə iştirak edən və hazırda işğaldan azad olunmuş dövlət sərhədlərində xidmət aparan hər bir sərhədçi zabitin, gizirin, çavuşun və əsgərin hərbi vətənpərvərlik ruhunun yüksək olduğu, Vətən sərhədlərinin keşiyində qürurla xidmət etdikləri bildirilib, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin dövlət sərhədlərimizin mühafizəsinə göstərdiyi yüksək etimadı doğrultmaq üçün sərhədçilərin bundan sonra da səy və bacarıqlarını əsirgəməyəcəkləri vurğulanıb. Tədbirin sonunda hərbi orkestrin müşayiəti ilə şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib və xidməti fəaliyyətində yüksək nəticələr göstərmiş hərbi qulluqçular təltif olunublar.

Mərasimdə iştirak edənlər hərbi hissənin şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin təşkili üçün yaradılmış şərait, o cümlədən inzibati bina və təlim mərkəzi, eləcə də şəxsi heyətin iş otaqları, kazarma və yeməkxana, təlim sinifləri, hamam-camaşırxana kompleksi, anbar, silah və texniki vasitələr, avtomobil texnikası ilə tanış olublar. Kompleks daimi su, elektrik enerjisi və digər zəruri avadanlıqlarla təmin edilib.

Geniş imkanlara malik təlim mərkəzi müxtəlif cür atıcı silahlardan, minaatan qurğularından, zirehli texnikalardan atışların keçirilməsinə və atışların nəticələrinin qiymətləndirilməsinə, bölmələrin döyüş hazırlığının yüksəldilməsinə, DSX-nin şəxsi heyətinin mövcud silah və döyüş texnikasından istifadə etmə bacarıqlarının yüksəldilməsinə şərait yaradır.

Təlim mərkəzinin poliqonunda zirehli texnikalardan, atıcı silahlardan, minaatan və zenit qurğularından təlim atışları yerinə yetirilib.

# "Yaşıl Marafon" çərçivəsində ağacəkmə aksiyaları davam edir









Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində növbəti ağacəkmə aksiyaları keçirilib.

IDEA İctimai Birliyindən AZƏRTAC-a verilən məlumata görə, aprelin 7-də könüllü gənclərin iştirakı ilə Şəmkir rayonunda 3300 ədəd, Göygöl rayonunda 3333 ədəd, Ağdaş rayonunda isə 250 ədəd ərazilərin torpaq-iqlim şəraitinə uyğun müxtəlif cinsli ağac əkilib.

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən layihənin əsas məqsədi yaşıllıq sahələrini artırmaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

Ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda iqlim dəyişmələri ilə bağlı təsirlərin minimuma endirilməsində əvəzsiz rolu olan yaşıllıqların artırılmasına xüsusi önəm verən IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ölkəmizin digər rayonlarında da genişmiqyaslı ağacəkmə tədbirlərini davam etdirir.

Yaz və payız mövsümlərində ölkə üzrə 1 milyona yaxın ağac əkilməsini hədəfləyən layihə tərəfdaşları hər kəsi bu təşəbbüsə dəstək olmağa və təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

# Azərbaycanın bir qrup media nümayəndəsi Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinə müraciət ünvanlayıb

**Azərbaycanın bir qrup media nümayəndəsi və blogerlər Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinə müraciət ünvanlayıb.**

AZƏRTAC müraciəti təqdim edir.

- Şuşa şəhərində Rusiyaya məxsus "İsgəndər" Operativ-Taktiki Raket Kompleksinin qalıqlarının aşkar edilməsi Azərbaycan ictimaiyyətinin diqqət mərkəzindədir.

Xatırladaq ki, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşları erməni işğalından azad edilmiş Şuşa şəhərində minaların və partlamamış hərbi sursatların axtarışı və zərərsizləşdirilməsi zamanı ballistik raketin detallarını aşkar ediblər. Raketin qalıqları üzərində qalmış tanıma nömrəsinin (9M723) təhlili göstərib ki, Şuşa şəhərinə "İsgəndər-M" Operativ-Taktiki Raket Kompleksindən atəş açılıb. Raketin qalıqları hələ martın 15-də aşkar edilib. Lakin Azərbaycan tərəfi bu qalıqların məhz "İsgəndər-M" Operativ-Taktiki Raket Kompleksinə mənsub olmasını yalnız hərtərəfli ekspert təhlilindən sonra elan edib.

Biz xatırlatmağa məcburuq: Yerevanda dəfələrlə belə bəyanatlar səslənib ki, Ermənistan Azərbaycana Rusiya istehsalı olan "İsgəndər" Operativ-Taktiki Raket Kompleksindən atəş açıb. Məsələn, Ermənistanın baş naziri Nikol Paşinyan, Ermənistanın sabiq prezidenti Serj Sarkisyan, Ermənistan silahlı qüvvələri baş qərargahının keçmiş rəisi Movses Akopyan bu cür iddialarla çıxış ediblər.

Lakin Rusiya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi İqor Konaşenkov o vaxt Qarabağda "İsgəndər" raketlərinin tətbiq olunmasını qəti inkar edərək bildirib: "Bizdə olan, o cümlədən obyektiv nəzarət sistemi ilə təsdiq edilmiş obyektiv və mötəbər məlumatlara görə, Dağlıq Qarabağda münaqişənin gedişində bu tipli heç bir raket kompleksi tətbiq edilməyib".

Lakin indi Şuşada "İsgəndər-M" Operativ-Taktiki Raket Kompleksinə mənsub olan raket detalları aşkar edilib. Operativ-Taktiki Raket Kompleksinin bu modifikasiyası ixrac edilməməlidir və Rusiya ordusunun təchizatında istifadə olunur.

Şuşada məhz "İsgəndər-M" Operativ-Taktiki Raket Kompleksin raketinin qalıqlarının aşkar edilməsi hələ aprelin 2-də elan olunub. Bu xəbər həm Azərbaycan, həm də xarici KİV tərəfindən geniş işıqlandırılıb. Lakin indiyə qədər Rusiya tərəfinin dəqiq və birmənalı rəsmi cavabı eşidilməyib. Biz təəccüblənirik ki, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin, digər əlaqədar strukturların şəxsində Şuşa şəhərinə "İsgəndər-M" Operativ-Taktiki Raket Kompleksindən necə atəş açıla bilməsinə aydınlıq gətirməyə tələsmir. Əlbəttə, bu faktın tam və hərtərəfli təhqiqatı vaxt tələb edir. Lakin hətta təhqiqatın başlanması barədə rəsmi bəyanatın da olmaması Azərbaycan ictimaiyyətində ciddi anlaşılmazlıq və narahatlıq doğurur.

Ümidvarıq ki, Rusiya tərəfi ən yaxın vaxtda öz rəsmi mövqeyini bildirəcək və təhqiqatın başlanmasını rəsmən elan edəcəkdir.

1. Mir Şahin Ağayev - REAL TV-nin rəhbəri
2. Əflatun Amaşov - Mətbuat Şurasının sədri
3. Rəşad Məcid - "525-ci qəzet"in baş redaktoru
4. Eynulla Fətullayev - "Haqqın.az" saytının baş redaktoru
5. Mehriban Məmmədova - AzTV-nin İnformasiya Proqramları Baş Studiyasının baş direktoru
6. Orxan Fikrətoğlu - müstəqil jurnalist
7. Elçin Mirzəbəyli - "Xalq cəbhəsi" qəzetinin baş redaktoru
8. Səadət Məmmədova - ATV prezidentinin müşaviri
9. Həmid Həmidov - jurnalist, bloger
10. Murad Hüseynov - İTV-nin baş direktorunun müavini
11. Mübariz Əsgərov - müstəqil jurnalist
12. Şakir Eminbəyli - "Rossiya 24" kanalının Azərbaycandakı nümayəndəsi
13. İlqar Mikayıloğlu - REAL TV-nin hərbi analitiki
14. Lalə Azərtaş - Xəzər TV-nin aparıcısı
15. Emin Musəvi - ASAN radionun rəhbəri
16. Rauf Arifoğlu - "Yeni Müsavat" qəzetinin baş redaktoru
17. Elçin Şıxlı - "Ayna-Zerkalo" qəzetinin baş redaktoru
18. Azər Qərib - bloger
19. Tofiq Abbasov - AzTV-nin siyasi icmalçısı
20. Əli Hacızadə - bloger, "The Greater Middle East" layihəsinin rəhbəri
21. Vyacheslav Sapunov - bloger
22. Ədalət Verdiyev - bloger
23. Tofiqəxanım Qasımova (Nurani) - "Minval.az" saytının siyasi icmalçısı
24. Elçin Alıoğlu - "Milli.az" saytının baş redaktoru
25. Vüsal Məmmədov - "Azvision.az" saytının baş redaktoru
26. Şakir Ağayev - "Novaya Vremya" qəzetinin baş redaktoru.

# Prezident İlham Əliyev sərkərdə qətiyyəti və siyasi müdrikliklə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi

**44 günlük müharibə Zəfərlə başa çatdı. Tariximizi şərəfləndirən, gələcəyimizə işıq salan böyük Qələbəyə imza atıldı. Bu müharibə bir daha Azərbaycanın əyilməz ruhunu göstərdi.**

Müzəffər ordumuzun 44 günlük müharibədə gücünü və qəhrəmanlığını görmək hamımıza nəsib oldu. Bunları bizə bəxş edən, qatı düşmənə qarşı amansız döyüşlərdə qəhrəmanlıq göstərən ordumuz və adını tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazan Ali Baş Komandan İlham Əliyevdir.

Düşmənin təxribatı nəticəsində sentyabrın 27-dən etibarən başlayan "Dəmir yumruq" əməliyyatı Azərbaycanın əsl hərbi qüdrətini, yüksək döyüş bacarığını nümayiş etdirərək Ermənistan silahlı qüvvələrini diz çökdürdü.

Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük İkinci Qarabağ müharibəsində minlərlə vətən övladı doğma torpaqlarımızın hər qarışı uğrunda son damla qanına qədər döyüşərək əsl qəhrəmanlıq nümunələri göstərdilər. Vətən uğrunda canlarından keçən igidlərimizin qanı yerdə qalmadı. Qəhrəman ordumuz bütün şəhidlərin, o cümlədən Xocalı soyqırımının qurbanlarının qisasını aldı, düşməni darmadağın etdi. Torpaqlarımız 30 illik işğaldan sonra ana vətənə qovuşdu.

Vətən savaşından sonra ən mühüm hadisələrdən biri də Ali Baş Komandanın işğaldan azad olunmuş bölgələrə səfərləri oldu. Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan səfərlərindən sonra möhtərəm Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfərləri də olduqca əhəmiyyətli idi.

Dövlət başçımızın indiyədək işğaldan azad edilmiş digər rayon və şəhərlərimizə etdiyi səfərləri kimi, Şuşaya səfəri də Ali Baş Komandanın ürəyində yaşatdığı sonsuz Vətən sevgisinin və xalqa olan bağlılığının daha bir təcəssümüdür.

Prezident İlham Əliyev müharibə günlərində 30-a yaxın xarici KİV-ə müsahibə verərək Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırdı. Onların bir qismi erməni diasporundan tapşırıq alaraq təxribatçı suallar verirdilər. Amma cənab İlham Əliyev jurnalistlərin suallarını təmkinlə cavablandırdı, qətiyyətlə Azərbaycanın haqlı mövqeyini əsaslandırdı. Prezident təxribatçı suallara elə cavablar verirdi ki, jurnalistin mövzunu dəyişməkdən başqa yolu qalmırdı.

Bu müharibədə xalqımız milli həmrəylik nümayiş etdirdi, Prezidentin ətrafında səfərbər oldu. Xalqımız heç vaxt bu müharibədə olduğu kimi vətənpərvərlik nümunəsi göstərməmişdi. Buna görə bir daha azərbaycanlı olmağımızla fəxr etdik, qürur duyduq. Xalqımız həmrəylik nümayiş etdirərək Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşdi və bu yumruqla düşmənin başı əzildi. Müharibə günlərində xalqımız hər gün səbirsizliklə İlham Əliyevin müraciətini gözləyir və ya "Twitter" hesabını izləyirdi. Çünki hamı bilirdi ki, Prezident yeni qələbə müjdəsini çatdıracaq.

20 Yanvar faciəsinin 31-ci ildönümündə xalqımız Şəhidlər xiyabanını vüqarla ziyarət etdi. Çünki bu dəfə müharibədə qalib gəlmiş xalq olaraq şəhidlərimizi ziyarət edirdik. Onların ruhu indi rahatdır, şaddır. Çünki qanları yerdə qalmadı, uğrunda canlarından keçdikləri ana torpaq azad edildi.

Ermənistanın itkiləri isə elan etdikləri rəsmi rəqəmlərdən qat-qat çoxdur. Çünki sıravi ermənilərin özləri də deyirlər ki, itkilərin sayı gizlədilir, düzgün hesablanmır. Hətta Ermənistanın aidiyyəti qurumları erməni əsgərlərinin cəsədlərinə yaxın durub aparmaq istəmirdilər. Çünki həm itkilərinin sayını gizlədirdilər, həm də əsgər valideynlərindən qorxurdular.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra həm də bütün dünya erməni vandallığını, barbarlığını gördü. Hətta bayrağımızı asmaq üçün Füzulidə bir dirək belə tapılmadı. Erməni vandalları Kəlbəcəri tərk edərkən evlərə, meşələrə od vurdular. Əllərinə keçən hər şeyi daşıyan, apara bilmədiklərinə od vurub yandıran bir xalqın nümayəndələrindən bundan artıq nə gözləmək olardı.

Ermənistan öz xislətindən irəli gələrək milli-mədəni, tarixi və dini abidələrimizi dağıdıb, onları erməniləşdirməyə cəhd etmiş, məscidlərimizi murdarlamışlar. On minlərlə tarixi eksponat Ermənistana daşınmış, Azıx mağarasında qeyri-qanuni tədqiqatlar aparılmışdır. O cümlədən yeraltı və yerüstü sərvətlərimizi 30 il ərzində qanunsuz şəkildə istismar edib, oğurlayıblar. İşğal altında olan ərazilərimizin gözəl təbiəti də erməni xislətinin qurbanı olmuş, meşələr, qiymətli ağac növləri kəsilmiş, tarixi Orta əsrlərə qədər uzanan ağaclar məhv edilmişdir. Qarabağ bölgəsinin hər qarışı qiymətli metallarla zəngindir. 30 ilə yaxın müddətdə Ermənistan onları talayaraq oğurlamış, cinayətkarcasına mənimsəmişlər.

Hazırda qarşıda duran əsas vəzifələrdən biri işğal dövründə Ermənistanın Azərbaycana vurduğu zərərin hesablanması və işğalçı barədə beynəlxalq hüququn tələblərinə uyğun ölçü götürülməsidir. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş dağıntılar 30 illik proses çərçivəsində ayrıca qiymətləndiriləcək. Ermənistan müharibə cinayətlərinə görə cavab verəcəkdir.

İşğal altında olan şəhər və rayonlarımızın, kəndlərimizin bir-birinin ardınca azad edilməsi ilə Azərbaycan əsgərləri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət göstərmək nümunəsinə çevrildilər. Düşmənin 30 ildə qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, ordumuzun tətbiq etdiyi müharibə strategiyası müasir dövr hərb tarixinə həkk olundu. Eyni zamanda Azərbaycan xalqı bu müharibədə yumruq kimi birləşdi, öz Prezidentinin ətrafında səfərbər oldu.

44 günlük müharibədə Azərbaycan ilk dəfə olaraq öz tarixi ərazilərini işğaldan azad etdi. Prezident İlham Əliyev sərkərdə qətiyyəti və siyasi müdrikliklə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi.

Bu gün ermənilər özləri də etiraf edirlər ki, İlham Əliyevə qalib gəlmək mümkün deyil.

*Mehman XANKİŞİYEV,*
*Şəki rayon prokuroru,*
*ədliyyə müşaviri*

# Sahibi "tapılmayan" "İsgəndər"

## Onun ixrac modifikasiyası olmaması suallar doğurur





*Əvvəli 1-ci səh.*

Ermənistanda bu tip raketlərin olduğuna görə həmin vaxt Akopyanın açıqlaması geniş rezonans doğurmamışdı.

Amma Şuşa ətrafında tapılan "İsgəndər" tamamilə başqa fərqli vəziyyəti ortaya çıxardı. Belə ki, raketin qalıqlarında aşkar edilən "9M723" indeks kodu araşdırmalarla yoxlanılıb və məlum olub ki, Şuşa istiqamətində həqiqətən "İsgəndər" raketi atılıb. Lakin bu qalıqlar Ermənistanda olan "İsgəndər E" modifikasiyasına deyil, ixrac üçün nəzərdə tutulmayan "İsgəndər-M" versiyasına aiddir. Bu modifikasiyasanın Ermənistana verilməsi rəsmi olaraq heç bir mənbədə əksini tapmayıb. Heç bir hərbi hesabatda "İsgəndər-M" versiyasının Ermənistana verilməsi barədə məlumat yoxdur.

Akopyanın açıqlamasına baxmayaraq, hələ fevral ayında Ermənistanda "İsgəndər" raketinin partlamaması ilə bağlı mübahisələr qızışanda Rusiya Müdafiə Nazirliyinin rəsmisi İqor Konaşenkov bildirmişdi ki, Qarabağda hərbi əməliyyatlar zamanı "İsgəndər" raketləri, ümumiyyətlə, tətbiq edilməyib və komplekslərin bütün döyüş sursatı-raketlər hamısı Ermənistan ordusunun anbarlarındadır.

Tapılan qalıqlar raketin istifadə edildiyini tam təsdiq etsə də, onun Ermənistana verilən modifikasiya ilə eyniyyət təşkil etməməsi suallar doğurur. Azərbaycanda bir qrup media nümayəndəsi və blogerlər Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinə bununla bağlı müraciət ünvanlayıblar. "Şuşada məhz "İskəndər-M" Operativ-Taktiki Raket Kompleksin raketinin qalıqlarının aşkar edilməsi hələ aprelin 2-də elan olunub. Bu xəbər həm Azərbaycan, həm də xarici KİV tərəfindən geniş işıqlandırılıb. Lakin indiyə qədər Rusiya tərəfinin dəqiq və birmənalı rəsmi cavabı eşidilməyib. Biz təəccüblənirik ki, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin, digər əlaqədar strukturların şəxsində Şuşa şəhərinə "İsgəndər-M" Operativ-Taktiki Raket Kompleksindən necə atəş açıla bilməsinə aydınlıq gətirməyə tələsmir. Əlbəttə, bu faktın tam və hərtərəfli təhqiqatı vaxt tələb edir. Lakin, hətta, təhqiqatın başlanması barədə rəsmi bəyanatın da olmaması Azərbaycan ictimaiyyətində ciddi anlaşılmazlıq və narahatlıq doğurur", - deyə müraciətdə bildirilir.

Düzdür, məsələ ilə bağlı KİV-də belə məlumatlar da yayıldı ki, "İsgəndər-M" raketləri Ermənistana qanunsuz ötürülüb və Rusiyanın müvafiq qurumları bununla bağlı təhqiqat başladıb. Məlumatda qeyd olunur ki, raketlər qanunsuz əldə edilib, Livan və Rusiya bankları üzərindən ödəniş həyata keçirilməklə qeyri-leqal olaraq Ermənistana ötürülüb. Bu barədə də hələlik rəsmi açıqlamalar olmasa da, ümid edirik ki, Şuşada tapılan "İsgəndər M" raketinin kimə məxsus olmasına tezliklə aydınlıq gətiriləcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Paşinyan hərbi xuntanı birdəfəlik sıradan çıxarır

## Məğlub olacağını bilən Robert Koçaryan isə qiyama hazırlaşır

*Əvvəli 1-ci səh.*

### Müxalifət lazımi dəstəyi ala bilmir

44 gün davam edən İkinci Qarabağ müharibəsinin nəticələrini əsas götürən müxalifət hələ də etiraz aksiyaları təşkil edərək Nikol Paşinyanı bu yolla hakimiyyətdən uzaqlaşdırmağa vadar edəcəyini düşünsə də, reallıq bunun əksini göstərir. Müxalifət partiyalarının birləşdiyi "Vətənin qurtuluşu hərəkatı" çoxsaylı etiraz aksiyaları təşkil etsə də, cəmiyyətdən lazımi dəstək ala bilmir. Etiraz aksiyaları ilə müxalifət tərəfindən hakimiyyətdən devrilməsinin mümkünsüzlüyünü görən Nikol Paşinyan cəmiyyətin hələ də onu dəstəklədiyini siyasi opponentlərinə nümayiş etdirmək məqsədilə müxtəlif addımlar atır. Onun iyunun 20-də növbədənkənar parlament seçkilərində qalib gələ biləcək əsas qüvvə obrazını yaratması, bu xüsusda nəzarətində olan media orqanlarına çoxsaylı göstərişlər verməsi də qeyd edilənlərin təsdiqidir.

Hazırda mövcud şərtlər daxilində müxalifət partiyalarının birləşdiyi "Vətənin qurtuluşu hərəkatı"nda yer alan siyasi qüvvələrin bir çoxu növbədənkənar parlament seçkilərinin keçirilməsinə qarşıdır. Lakin Ermənistanın keçmiş prezidenti Robert Koçaryan fərqli mövqe sərgiləyir. Artıq Koçaryan növbədənkənar parlament seçkilərində partiyalar blokuna liderlik edəcəyini açıqlayıb. O, Rusiya telekanalında yayımlanan "Pozner" proqramının efirində müvafiq açıqlamalar verib.

Qeyd edək ki, keçmiş prezident seçkilərin keçiriləcəyi təqdirdə iştirak edəcəyini dəfələrlə bildirsə də, iştirak formatını açıqlamamışdı. İndi isə partiyalar blokuna liderlik edəcəyini bildirir. Koçaryan 10 il Ermənistana rəhbərlik etdiyini, bununla belə tərəfsiz olduğunu xatırladıb. O, həmin blokun hansı partiyalardan ibarət olacağını dəqiqləşdirməyib. Amma ehtimal edilir ki, bunlardan biri "Daşnaksütyun" olacaq. Digər partiya qismində Respublika Partiyasının çıxış edəcəyi gözlənilir.

### Güc yolu ilə hakimiyyəti devirmək planı

Təhlillər göstərir ki, Koçaryanın növbədənkənar parlament seçkilərində iştirakı təsadüfi xarakter daşımır. Məsələ burasındadır ki, növbədənkənar parlament seçkilərində seçiləcəyi təqdirdə Paşinyanın daha bir neçə il hakimiyyətdə qalacağı qaçılmazdır. Bu da Koçaryanın siyasi karyerasının sonu olmaqla yanaşı, onun Paşinyandan qisas almaq niyyətinin həyata keçməsinə imkan verməyəcək.

Bununla belə, R.Koçaryan növbədənkənar parlament seçkilərində cəmiyyətdən lazımi dəstək ala bilməyəcəyini yaxşı başa düşür. Amma belə olacağı halda o, bunu Paşinyanın seçki saxtakarlığı ilə əlaqələndirərək, hakimiyyətə qarşı radikal qüvvələrin iştirakı ilə yeni aksiyalar keçirməyi, mümkün olarsa, qiyama başlamağı mümkün sayır.

Artıq Koçaryanın güc yolu ilə hakimiyyəti devirmək niyyəti haqda erməni politoloqları xəbərdarlıqlar edib. Həm Koçaryanın, həm də "Vətənin qurtuluşu hərəkatı"nın qiyama meyillənməsi Ermənistanda yaxın tezlikdə siyasi müstəvidə hadisələrin yenidən dramatik şəkildə inkişafını istisna etmir. Xüsusən də hakimiyyətin növbədənkənar parlament seçkilərində qalib gəlmə ehtimalının yüksək olması fonunda müxalifət Paşinyanı qiyamla devirməkdən başqa yolun olmadığını düşünür.

### Koçaryan yenidən həbs oluna bilər

Amma bu qiyama Ermənistan cəmiyyəti tərəfindən dəstək ifadə olunmur. Bu səbəbdən Paşinyanın qiyama meyil edən siyasi rəqiblərini güc yolu ilə əzməyə çalışacağı, bunun da yenə Ermənsitanda siyasi gərginliyə yol açacağı gözlənilir. Belə görünür ki, seçkilər ərəfəsində Robert Koçaryan yenidən məhkəməyə cəlb edilə və həbs oluna bilər.

Bununla belə, Ermənistan Konstitusiya Məhkəməsinin qərarı əsasında Robert Koçaryana qarşı irəli sürülmüş konstitusiya quruluşunu devirmək ittihamları geri götürülüb. Belə ki, iki həftə əvvəl Konstitusiya Məhkəməsi ölkə Cinayət Məcəlləsinin konstitusiya quruluşunu devirmək ittihamını nəzərdə tutan 300.1-ci maddəsinin Konstitusiyaya uyğunsuzluğu barədə qərar çıxarıb. Bundan sonra Koçaryanın vəkilləri məhkəməyə vəsatət verərək onun barəsində cinayət işinin bağlanmasını tələb ediblər.

Xatırladaq ki, R.Koçaryan 2008-ci il, 1 mart hadisələrini törətməkdə ittiham olunurdu. Yerevanın ümumi yurisdiksiyasının hakimi Anna Danibekyan Konstitusiya Məhkəməsinin 300.1-ci maddəsini (konstitusiya quruluşunun devrilməsi) Konstitusiyaya zidd elan etdiyi üçün "1 mart" işi üzrə cinayət işinə xitam verilməsi barədə qərar verib. Qərar sabiq baş qərargah rəisi Yuri Xaçaturov və keçmiş müdafiə naziri Seyran Ohanyana qarşı həbs qətimkan tədbirinin ləğv ediləcəyini nəzərdə tutur, çünki onların hər ikisi yalnız bu maddə ilə ittiham olunurdu.

Koçaryanın və keçmiş baş nazir müavini Armen Gevorkyan başqa cinayətlərdə də ittiham olunduqlarından onlarla bağlı cinayət təqibi isə davam edəcək. Ermənistanın ikinci prezidenti külli miqdarda rüşvət almaqda, Gevorkyan isə çirkli pulların yuyulmasında ittiham olunur. "Azatutyun" radiosu bildirir ki, beləliklə, R.Koçaryan artıq "1 mart" işi üzrə təqsirləndirilən şəxs sayılmır. Həmin tarixdə polislə etirazçılar arasında baş vermiş toqquşmalar nəticəsində 10 nəfər həlak olmuşdu. Zərərçəkənlərdən 9-nun maraqlarını təmsil edən vəkil Tiqran Yeqoryan etiraf edib ki, yaranmış vəziyyətdə o da cinayət işinin bağlanmasından başqa çıxış yolu görmürdü.

Buna baxmayaraq, vəkil belə bir qərar verdiyinə görə Konstitusiya Məhkəməsini tənqid edib. Yeqoryan bildirib ki, bu, hüquqi yox, siyasi qərar olub. Vəkil deyib ki, qərar konkret qrupların maraqlarına xidmət edir. Onun fikrincə, Konstitusiya Məhkəməsinin qərarı qanunsuzdur, çünki konstitusiya ilə ziddiyyət təşkil edir. Yeqoryan təəssüflə qeyd edib ki, artıq 2 il yarımdır müttəhim statusunda olan keçmiş prezidentin məsuliyyətdən azad edilməsində Konstitusiya Məhkəməsinə Nikol Paşinyanın baş nazirliyi dövründə təyin olunmuş hakimlər də iştirak ediblər.

Vəkil vurğulayıb ki, buna səbəb ölkədə yaranmış siyasi vəziyyət və hüquq siyasətinin olmamasıdır. Yeqoryan onu da bildirib ki, 300.1-ci maddəsi Avropa İnsan Haqları Məhkəməsinin bir neçə ay əvvəl dərc etdiyi hesabata və Venesiya Komissiyasının tövsiyələrinə görə də Konstitusiyaya uyğun sayılır.

"Azatutyun" yazır ki, "1 mart" işindən xilas olsa da, R.Koçaryan 3 milyon dollar məbləğində rüşvət almaqda ittiham olunur. Prokuror Petros Petrosyan deyib ki, baş prokuror Cinayət Prosessual Məcəlləsinin iki maddəsinin konstitusiyaya uyğunluğu məsələsinə baxılması üçün Konstitusiya Məhkəməsinə müraciət edib. Cinayət Prosessual Məcəlləsinin bu maddələri Koçaryana qarşı ittiham maddəsinin dəyişdirilməsinə imkan vermir. Petrosyanın sözlərinə görə, Konstitusiya Məhkəməsi sözügedən maddələri də ləğv etsə, Koçaryan və başqa müttəhimlərə qarşı yeni ittiham irəli sürüləcək. Gələn həftə məhkəmədə Koçaryana qarşı rüşvət ittihamına baxılacaq.

Görünən odur ki, seçkilər fonunda bu ittiham üzrə Koçaryanın yenidən həbsi gözlənilir. Bu halda Nikol Paşinyan keçmiş hərbi xuntanı sıradan çıxarmaq imkanı qazanacaq. Bununla da, hakimiyyətdə qalmasını təmin edəcək, təhlükəli rəqiblərini inzibati yollarla mübarizədən kənarlaşdıracaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# KƏNDİMİZ

# Prezidentin tələbi: meliorasiya və su təsərrüfatı müasir idarəetmə sisteminə keçməlidir



Əvvəli 1-ci səh.

Videoqəbuldakı çıxışında Prezident meliorativ tədbirlərin hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıdığını bir daha vurğulamışdır: "Xüsusilə su ehtiyatları o qədər də böyük həcmdə olmayan ölkələrdə bunun daha da böyük əhəmiyyəti var. Bir daha demək istəyirəm ki, su anbarlarının, su kanallarının tikintisi infrastruktur layihələr arasında həmişə prioritet yerdə olub və bundan sonra da belə olacaq".

Qəbul zamanı müsbət işlərdən daha çox problemlərə diqqət ayrılmış, suyun səmərəli istifadəsindəki çətinliklər və çatışmazlıqlar göstərilmişdir. Azərbaycanın sürətlə inkişaf etdiyi və əhalinin sayının artdığı üçün suya tələbatın da çoxaldığı qeyd olunmuşdur. Odur ki, çatışmazlıqların aradan qaldırılması, idarəetmədə müasir yanaşmanın tətbiq edilməsi, müasir texnologiyaların ölkəmizə gətirilməsi qarşıda duran vacib vəzifələrdir. Bundan sonra meliorativ tədbirlər, necə deyərlər, dədə-baba üsulu ilə aparılmamalıdır.

Prezident qeyd etmişdir ki, sudan səmərəli istifadə edilməlidir, çünki mövcud problemlərdən biri itkilərin böyük həcmdə olmasıdır. Bu itkilər bəzi hallarda təbii xarakter daşıyır, bəzi hallarda isə səhlənkarlıq ucbatından baş verir. Uçotun olmaması işi çətinləşdirir. Dövlət başçısı diqqəti bu məsələyə cəlb edərək demişdir: "İnkişaf etmiş ölkələri götürsək görərik ki, orada belə deyil - suyun hər bir litri hesablanır, hər yerdə sayğaclar qoyulur, uçot düzgün aparılır və qoyulmuş investisiyanın müqabilində hansı nəticə əldə olunacaq bəri başdan hesablanır. Bizdə də belə olmalıdır".

Prezident digər vacib məsələ kimi kanalların təmiri və yenidənqurulmasını qeyd etmişdir. Bildirmişdir ki, sovet dönəmindən qalma torpaq kanallarda su itkiləri böyükdür. Bunun qarşısını almaq üçün dünyanın aparıcı şirkətləri ilə sıx təmaslar qurulmalı, oxşar iqlimi olan ölkələrin müsbət təcrübəsi öyrənilməli, düzgün fəaliyyət planı tərtib edilməli, zərurət yaranarsa dövlət proqramı qəbul olunmalıdır.

Dövlət başçısı videoqəbulda suyun ədalətsiz bölüşdürülməsi hallarının geniş vüsət aldığını da bildirmişdir: "Burada həm mərkəzi icra orqanları, yerli icra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdilər. Belə olan halda, bəzi fermerlərə, bəzi kəndlilərə su çatmırdı. Mən göstəriş vermişdim, indi təhlil aparılır, araşdırma aparılır. Buna da son qoyulmalıdır. Su xətlərinin üzərində çoxsaylı qanunsuz birləşmələr quraşdırılmışdır. Təhlil aparılarkən biz buna da rast gəldik. Belə çıxdı ki, heç kim buna məsuliyyət daşımır, heç kim buna cavabdehlik daşımır. Buna son qoyulmalıdır".

Videoqəbulda azad edilmiş torpaqlarda meliorativ tədbirlərin görülməsi məxsusi vurğulanmışdır. Bildirilmişdir ki, biz düşməni öz ərazilərimizdən qovmaqla böyük su mənbələrini geri qaytarmışıq. Odur ki, həm azad edilmiş ərazilərdə, həm də ölkəmizin digər yerlərində bütün su ehtiyatlarının potensialı dəqiq təhlil olunmalıdır. Onlardan maksimum səmərəli istifadə etmək üçün konkret proqramlar və təkliflər təqdim edilməlidir.

Qəbuldan çıxan nəticə bu oldu ki, ölkənin bütün ərazisində bu sahədə görüləcək işlər çoxdur. Əsas prinsip müasirlik, ekoloji təhlükəsizlik və maksimum səmərəlik olmalıdır ki, kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlar öz həyatlarında müsbət dəyişiklikləri görsünlər. Prezident bunun belə də olacağına əminliyini bildirmiş, meliorasiya və su təsərrüfatının inkişafının son illər həmişə prioritet sayıldığını demişdir:" Bu sahənin inkişafı üçün çox böyük işlər görülmüşdür, dövlət büdcəsindən böyük həcmdə vəsait ayrılmışdır. Əgər bu işlər görülməsəydi, bu gün biz çox böyük problemlərlə üzləşmiş olardıq".

Bununla belə, dövlət başçısı qeyd etmişdir ki, əldə edilmiş nailiyyətlər davamlı olmalıdır. Sahəyə müasir menecment gətirilməli, hər bir yerdə müasir idarəetmə olmalıdır. Son vaxtlar aparılan kadr islahatları da bunu göstərir. Harada müasir menecment və idarəetmə, dürüstlük, təmizlik, vicdan varsa, orada nəticə də müsbət olur: "Yenə də deyirəm, bu sahə prioritet sahə olaraq qalır və qalacaq. Ancaq burada yeni yanaşma olmalıdır, müasir tələblərə uyğun yanaşma. Hesab edirəm ki, siz bütün bu məsələləri qısa müddət ərzində bir daha təhlil edib, konkret təkliflər paketi ilə çıxış edəcəksiniz".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***



## Göygöl rayonunda heyvandarlığın inkişafına diqqət artır

Heyvandarlıq kənd təsərrüfatının əsas sahəsi olmaqla əhalinin ərzaq məhsulları ilə təmin edilməsində xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Göygöl rayonunda da bir sıra tədbirlər həyata keçirilir, o cümlədən heyvanların cins tərkibinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir.

Qeyd edək ki, cari ilin 3 ayı ərzində rayondakı fiziki və hüquqi şəxslərə lizinq yolu ilə xaricdən gətirilmiş 72 baş damazlıq heyvan satılmışdır ki, bununla da rayonda cins heyvanların sayı 333 başa çatdırılmışdır.

Məlum olduğu kimi, Prezidentin 28 iyun 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planında damazlıq işlərinin dövlət tərəfindən dəstəklənməsi və heyvandarlıqda süni mayalanma tədbirlərinin genişləndirilməsi də nəzərdə tutulmuşdur. Həmin sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi istiqamətində də rayonda xeyli iş görülmüşdür. Belə ki, təkcə cari ilin 3 ayı ərzində 250 baş heyvanda süni mayalanma işi aparılmış və 183 baş bala alınmışdır.

Məlum olduğu kimi, süni mayalanma yolu ilə alınmış hər baş sağlam buzova görə heyvan sahiblərinə 100 manat subsidiya verilir. Rayon üzrə cari ilin 3 ayı ərzində süni mayalanma yolu ilə alınmış 150 baş sağlam buzova görə heyvan sahiblərinə nəzərdə tutulan subsidiyanın verilməsi məqsədilə sənədlər Elektron Kənd Təsərrüfatı İnformasiya sisteminə daxil edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Ağsuda yazlıq bitkilərin əkini davam edir

**Ağsu rayonunda yazlıq bitkilərin əkini sürətlə davam etdirilir və artıq 575 hektar sahədə əkin aparılıb.**



Rayon statistika idarəsindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, indiyədək əkilən yazlıq bitkilərin sahəsi ötən ilin müvafiq dövründəkindən 248 hektar çoxdur. Əkinçiliklə məşğul olan fermerlər və fiziki şəxslər artıq 143,5 hektarda kartof, 146 hektarda yonca, 30 hektarda noxud, 303 hektarda tərəvəz, 135 hektarda bostan bitkiləri əkiblər. Əksər ərazilərdə, xüsusilə Padarqışlaq, Kəndoba, Ərəbuşağı, Gəgəli, Padar və bir sıra digər ərazi dairələrində yazlıq əkinlər daha mütəşəkkil aparılır. Əkinçilər bu mühüm kampaniyanın vaxtında və yüksək aqrotexniki tələblər səviyyəsində başa çatdırılması üçün bütün qüvvələrini səfərbər ediblər.

Qeyd edək ki, cari mövsümdə rayonda 2000 hektardan çox sahədə yazlıq bitkilərin əkiləcəyi gözlənilir.

## Azad olunan ərazilərin zəngin su ehtiyatları kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir



Yeraltı və yerüstü sərvətləri, təbiəti ilə zəngin olan Qarabağ torpaqları 30 il ərzində erməni vandalizminə məruz qalmış, xalqımıza, dövlətimizə qarşı cinayət törədilmişdir.

Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə rəşadətli ordumuz işğal altında olan ərazilərin geri qaytarılmasına, ölkəmizin bütövlüyünün bərpa edilməsinə nail oldu. Bu şanlı qələbə sayəsində regionun əsas problemi öz həllini tapdı. İndi qarşıda duran başlıca vəzifə illərdir erməni tapdağı altında olan torpaqlarda baş vermiş dağıntıları bərpa etmək, tikib-qurmaqdır. Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Dövlət Aqrar Universitetinin kafedra müdiri, professor Azad Bayramov söyləyib.

O qeyd edib ki, azad olunan ərazilərin bərpası və inkişafı istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb olunmasına təkan verəcək.

"İşğaldan azad olunan ərazilərin zəngin su ehtiyatları ölkənin sənayesi və kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir. Düşmən o torpaqlarda hidrotexniki qurğuları da tamamilə sıradan çıxarıb. Hazırda hidrotexniki qurğuların bərpası və suvarma işinin təşkili ilə bağlı planlar həyata keçirilir", - deyə Azad Bayramov bildirib. Onun sözlərinə görə, Sərsəng su anbarı respublikanın 6 rayonunda (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin etməyə imkan yaradacaq. Azad olunan ərazilərimizdə Sərsəng su anbarından başqa ümumi tutumu 80 milyon kubmetr olan digər su anbarları da var. Onların da ölkə təsərrüfatına qatılması əlavə 15 min hektar torpaq sahəsinin suvarılmasına şərait yarada bilər. Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarının azad olunması 75 min hektar yeni ərazinin suvarılması və mövcud suvarılan ərazilərin su təminatının yaxşılaşdırılması deməkdir.

Azad Bayramov qeyd edib ki, azad olunmuş ərazilərdə böyük müalicə əhəmiyyəti olan 120-dək mineral su yataqları da var. Bunların içərisində Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçın rayonunda İlıqsu, Minkənd, Şuşa rayonunda Turşsu, Sırlan və başqa mineral su yataqlarını xüsusi qeyd etmək lazımdır.

"Prezident İlham Əliyevin də dediyi kimi, "Biz işğaldan azad olunan bütün şəhərləri, rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var. Artıq, bu planlar reallaşır, infrastruktur layihələri icra edilməyə başlayır". Bir sözlə, əminliklə deyə bilərik ki, azad olunmuş torpaqların dirçəldilməsi istiqamətində atılan addımlar, görülən işlər bölgənin inkişafında mühüm rol oynayacaq", - deyə Azərbaycan Dövlət Aqrar Universitetinin kafedra müdiri əlavə edib.

## Ağcabədidə çiyid səpininə başlanılıb

**Ötən il məhsul tədarükünə və hər hektarın məhsuldarlığına görə respublikanın pambıqçılıq rayonları arasında ön sıralarda dayanan Ağcabədi pambıqçıları cari ilin çiyid səpininə başlayıblar.**

AZƏRTAC xəbər verir ki, 2020-ci ildə Ağcabədi rayonunda 10 min 689,2 hektar sahədə pambıq əkilib, 37 min 887 ton məhsul istehsal edilib, orta məhsuldarlıq 35,44 sentner olub. Ağcabədi pambıqçıları 2021-ci təsərrüfat ilində də bol məhsul yetişdirmək əzmindədirlər. Cari ildə rayon ərazisində 10 min 615 hektara yaxın əkin sahəsində pambıq əkilməsi planlaşdırılıb. Bununla əlaqədar olaraq, "Azərpambıq" MMC, "MKT İstehsal Kommersiya" MMC və "P-Agro" MMC ilə istehsalçılar arasında müqavilələr bağlanılıb. Rayonun bütün təsərrüfatlarında pambıq mövsümünə hazırlıq başa çatıb. Əkin sahələrindən yüksək məhsul əldə etmək üçün aqrotexniki tələblərə düzgün və ardıcıl əməl olunması diqqət mərkəzində saxlanılıb. Sahələr optimal müddətdə şumlanılıb, təmizlənib, suvarma suyu və mineral gübrələrlə təmin olunub, malalanıb.

Artıq təsərrüfatlarda çiyid səpininə başlanılıb. Bu il sahələrdə rayona emal müəssisələri tərəfindən gətirilmiş yüksəkkeyfiyyətli pambıq sortları yetişdiriləcək. Traktorlar, səpin aqreqatları və digər texniki vasitələr səpin işlərinə səfərbər olunub. Çiyid səpininin 15-20 gün müddətində başa çatdırılacağı planlaşdırılır.

# Hədəf daxili tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etməkdir

## Bunun səmərəli yolu isə məhsuldarlığın artırılmasıdır



Əvvəli 1-ci səh.

Bu üzdən son dövrlər dövlət heyvandarlığın inkişafı üçün bir sıra əməli addımlar atıb. İlk növbədə xaricdən daha məhsuldar damazlıq cins mal-qaranın gətirilməsi və fermerlərə güzəştli qiymətlərlə satılması sayəsində bu sahədə ciddi dönüş yaranıb. Eləcə də fermerlərin məhsuldarlığı yüksək olan cins mal-qaradan səmərəli istifadəsi üçün damazlıq təsərrüfatları yaradılıb.

Son zamanlar Salyan rayonunda da mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində xeyli işlər görülüb. Bu məqsədlə xarici ölkələrdən çox sayda ətlik və südlük düyələr gətirilib, süni mayalanma məntəqələri şəbəkəsi genişləndirilib. Həmin məntəqələrdə süni mayalanma yolu ilə əldə edilən hər buzov üçün dövlət tərəfindən 100 manat subsidiyanın verilməsi fermerlərdə heyvandarlığın inkişafına marağı artırıb. Ötən il rayondakı məntəqələrin mütəxəssisləri tərəfindən mayalanma aparılan 6 min 237 baş inək və düyədən cari ilin yanvar-fevral aylarında 755 baş buzov alınıb. Fermerlərə doğulan buzovlara görə ümumilikdə 75 min 500 manat subsidiya ödənilib. Dövlətin göstərdiyi qayğı sayəsində hazırda Salyanın heyvandarlıq təsərrüfatlarında 63,3 min başdan çox qaramal saxlanılır ki, onların da 75 faizi süni mayalanma yolu ilə cins tərkibi yaxşılaşdırılmış heyvanlardır.

Ağsuda da heyvandarlığın inkişafına maraq artıb. Cari ilin birinci rübündə rayonda diri çəkidə ət istehsalı 1228 ton olub. Bu göstərici keçən ilin müvafiq dövründəkindən 15 ton çoxdur. Cari ilin əvvəlindən süd və yumurta istehsalında da artım müşahidə edilib. 3 ayda süd istehsalı 131 min ton artaraq 7125 tona çatıb.

Şəkidə isə şəxsi və fermer təsərrüfatlarında qoyunçuluğun inkişafı sürətlənib. Hazırda rayonun mövcud təsərrüfatlarında 302,2 min baş davarın 175,6 min başını ana qoyun və keçilər təşkil edir. 47,2 min baş davarın qışlama dövründə otarılması üçün qış otlaqlarından istifadə edilir. Qalan heyvanlar isə kəndətrafı örüş sahələrində və dağətəyi ərazilərdə otarılır.

Rayonda heyvandarlığın inkişafı üçün yem bazasının yaradılmasına da diqqət yetirilir. Heyvanların qışlamadan salamat və gümrah çıxması, həmçinin döl kampaniyasının uğurla başa çatması üçün yataqlarda qaba və qüvvəli yem tədarük olunur. Bu məqsədlə 340 hektarda xəsil arpa səpini də aparılıb.

Ölkədə dövlət baytarlıq üzrə kadrların hazırlanması və bu sahədə elmi potensialdan səmərəli istifadə edilməsinə də diqqət artıb. Azərbaycan Dövlət Aqrar Universiteti və Türkiyənin Firat Universiteti arasında protokolun imzalanması məhz bu məqsədə xidmət edir. İmzalanma zamanı universitetlərarası tərəfdaşlığın istiqamətləri müəyyənləşdirilib. Belə ki, Azərbaycan Dövlət Aqrar Universiteti və Fırat Universiteti baytarlıq, mühəndislik və balıqçılıq ixtisasları üzrə ikili diplomların tətbiqi məsələsini müzakirə edərək razılığa gəliblər. Qeyd edək ki, Fırat Universiteti Türkiyənin qabaqcıl ali təhsil müəssisələrindəndir. Universitetin Baytarlıq fakültəsi təhsilin keyfiyyətinə görə reytinq cədvəlində ölkə üzrə ikinci yerdədir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Yığılması çətin, qiyməti baha - quzuqarnı göbələyi

**Quzuqarnı adlanan göbələyi mart ayının ikinci ongünlüyündən başlayaraq şimal rayonlarının meşəliklərindən toplamaq olar.**

AZƏRTAC xəbər verir ki, bu göbələyin zəhərlisinə rast gəlinmir. Cəmi 30-35 gün ərzində yetişən quzuqarnını aprelin ortalarınadək yığmaq mümkündür.

Quzuqarnı dadına və tərkibindəki vitaminlərin zənginliyinə görə digər göbələklərdən fərqlənir. Yemək üçün hazırlanması isə çox sadədir. İsti su ilə yuyulub təmizləndikdən sonra yumurta ilə qarışdırılaraq bişirilir. Bundan başqa, çöl şəraitində quzuqarnını şişə çəkib kababını da hazırlamaq olar.

Hər il mart-aprel aylarında Şabran rayonu ərazisində, Gəndob-Yalama yolunun kənarında quzuqarnı satanlara rast gəlmək mümkündür. Mövsümün əvvəlində baha qiymətə satılan quzuqarnı hazırda alıcılara kiloqramı 15-25 manata təklif edilir.

Yol kənarında quzuqarnı satışı ilə məşğul olan Ağamalı Qasımov bildirib ki, göbələyin bu növü meşədə, əsasən qovaq ağaclarının altında bitir. Rəngi də yarpaqlardan seçilmir. Bu il mart ayında yağıntı çox olduğundan quzuqarnı da boldur.

Qiymətin baha olması bu göbələyin yığılmasının çətinliyi ilə əlaqədardır. Gün ərzində meşədən maksimum 4-5 kiloqram toplamaq olar. Bununla belə, quzqarnının yığılması olduqca zövqlü məşğuliyyət sayılır.



Yeni nəşrlər

# Onlar ölməzdirlər

Şəhidlər ana yurdu tutdular candan baha, çünki yollar açdılar qaranlıqdan sabaha




**...Tarix boyu insanlar öz torpağı uğrunda mübarizə aparıb, yağı-düşmənin əlinə keçməsin deyə, şirin canlarından keçmişlər. Buna şəhidlik deyib ulularımız. O zirvəyə isə yalnız xalq, Vətən yolunda canını fəda etməkdən çəkinməyən, ləyaqətli, qorxmaz, cəsarətli insanlar ucala bilər. Onlar əbədiyyət qazanan fədailər, Vətənin ölməzləri - şəhidləri adlanırlar:**

*Şəhidlər ana yurdu tutdular candan baha,*
*Şəhidlər yol açdılar qaranlıqdan sabaha!*
*Şəhidlər ölməz ruhla gedir üzü Allaha!*
*Şəhidlər gedən yolu tufanlar bağlamazlar,*
*Şəhidlər ölməzdilər, ölməzi ağlamazlar!*

Tarixi ərazilərimizin 30 ilə yaxındır ki, Ermənistanın quldur, terrorçu silahlı birləşmələri və onların gözə görünməyən havadaraları tərəfindən işğalına son qoymaq üçün 2020-ci ilin payızında, daha dəqiq desək, sentyabrın 27-də başlayıb cəmi 44 gün davam edən Vətən müharibəsinin nəticələri Azərbaycana Qələbə sevincləri, təcavüzkar, işğalçı Ermənistana isə məğlubiyyətin acılarını yaşatdı!

Bu tarixi hadisə dünyaya kimin kim olduğunu əyani şəkildə göstərdi: Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Ermənistan isə özgə torpaqlarına təcavüzün, işğalın son müsibətlərini yaşadı: canlı qüvvə və hərbi texnikasını itirdi. İşğalçı, terrorçu, təzavüzkar, vandallıqla məşğul olan Ermənistanın təbiətə qarşı belə soyqırımı siyasəti yürütdüyü bir daha təsdiqləndi.

Vətən müharibəsinin igid döyüşçülərinin şərəfli ömür yollarının əbədiləşdirilməsi də diqqət mərkəzində saxlandı. Şəhid və qazilərimizin doğmalarına, yaxınlarına təsəlli olsun deyə, Vətən müharibəsi igidlərinin əziz xatirəsinə məktəblərə, küçələrə adları verildi, park və xiyabanlarda onların büstləri qoyuldu, şeirlər həsr edildi, mahnılar bəstələndi, kitablar yazılmağa başlandı...

Belə nəşrlərdən biri də bu günlərdə çapdan buraxılan "Vətənin ölməz oğulları- Ağcabədi şəhidləri" kitabıdır. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, qalib sərkərdə İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə Qələbə sevinclərini, fərəh hisslərini əks etdirən şəkli ilə açılan kitaba müəllif, Milli Məclisin komitə sədri, fəlsəfə doktoru Tahir Rzayevin seçdiyi epiqraf ilk andaca diqqəti cəlb edir: Azərbaycan Prezidenti İlham Əliyevin müdrikcəsinə söylədiyi "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti bahasına, dövlətimizin siyasəti hesabına qazanmışıq" fikri ölməzlikləri ilə əbədiyyət qazanan şəhidlərimizin müqəddəs ruhuna ən böyük hədiyyə və ali mükafat qədər yüksəkdir.

Digər şəhid kitablarından bu toplunu fərqləndirən cəhətlər də az deyil. Müəllifin, əlbəttə, "Qələbəyə yol açdı mərd Ali Baş Komandan" şeirini kitaba epiqraf seçməsi təsadüfi deyil. Axı, Qələbə, Zəfər məhz sərkərdənin öz yerində olması ilə qazanılıb:

*Xalq rəhbərə dayaqdı, o da xalqla öyünür,*
*Gələcəyə nur saçır, hər ürəkdə döyünür.*
*Qələbə müjdəmizə insan, Vətən sevinir,*
*Tarix yazdı ordumuz, qalibdir Azərbaycan,*
*Qələbəyə yol açdı mərd Ali Baş Komandan!..*

"Vətənin ölməz oğulları-Ağcabədi şəhidləri" kitabı Vətən müharibəsində şanlı döyüş yolu keçib şücaət göstərərək əbədiyyətə qovuşan, eləcə də ağır yaralanaraq qazilik qazanan ağcabədili igidlərə həsr edilib. Canını doğma torpaqlarımızın azad olunması uğrunda mübarizədə qurban verən və erməni faşizminin məhvində qəhrəmanlıq göstərən hər bir şəhidin xatirəsinin əziz tutulması burada öz əksini geniş tapıb.

Kitabın annotasiyasında qeyd edildiyi kimi, şəhidlərimiz öz qəhrəman babalarının, böyük qardaşlarının, atalarının, əmilərinin cəsarətini, döyüş bacarığını bir daha bu müharibədə ortaya qoydular. Şəhidlərimizə, qazilərimizə böyük hörmətin, ehtiramın ifadəsi olaraq hazırlanan kitabdan məlum olur ki, Birinci Qarabağ savaşında 177 nəfər ağcabədili şəhidlik zirvəsinə ucalıb. 44 günlük Vətən müharibəsində ön cəbhəyə yaxın olan, həmişə atəşlərə məruz qalan Ağcabədinin daha 42 gənci bu ali məqama yüksəlib, 254 nəfəri yaralanıb. 3 nəfər - İsmayılov Etibar Bəylər oğlu, Hüseynov Sadiq Dayandur oğlu və Abdullayev Namiq Vahid oğlu isə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülənlərin arasındadır.

Kitabda diqqətçəkən, oxucuda maraq yaradan incə məqamlar az deyil. Tərcümeyi-haldan sonra şəhidlərin qısa ömür və döyüş yollarında göstərdikləri qəhrəmanlıqlar, igidlik və vətənpərvərliklər portret-oçerklərdə öz bədii ifadəsini tapıb. Şəhidliyindən sonra dünyaya gələn körpəsinin üzünü görməyən Abbasov Toğrul Bayram oğlunun şərəfli ömür və döyüş yolundan bəhs edən "Bu dünyaya xoş gəldin, şəhid qızı!" yazısını həyəcansız oxumaq olmur. Məhsəti Musanın qələmə aldığı bu məqalənin kitabda verilməsi heç də təsadüfi deyil: "...O günü həvəslə, səbirsizliklə gözləyirdi. Bir gün o, qalib olaraq ailəsinə dönəcək, qələbə sevincinin üstünə daha bir sevinc gələcəkdi. Tezliklə ata olacaqdı-ata!.. Vaxtsız itirdiyi anasının bir nişanəsini gəzəcəkdi uşağın üzündə, gözündə, nəfəsində..."

Yox, yox... oxumaq da olmur, yazmaq da. Bu tale yolunu yaxşısı budur ki, kitabdan oxusunlar, şəhidlərimizin nakam taleləri ilə yanaşı, onların əbədilik qazandığını unutmamaq üçün. Belə məqamlar müəllifin mövzuya yaxınlığını və kitabın dəyərliliyini ortaya qoyur. Elə oğullarımız da olub ki, onlar döyüşlərdə şəhidlik zirvəsinə ucalacaqları üçün, hətta dilək diləyib, nəzir deyiblər. Belə oğullardan biri də Ağcabədinin Kürdlər kəndində 1999-cu ildə anadan olmuş Abışov Əmrah Səyyab oğlu idi. Həyat coşqusu ilə yaşayan, ikinci dəfə Milli Orduya yazılan, Qarabağın azad edilməsi yolunda şəhidliyini arzulayan Əmrah xidmətdən artıq qulluq edən "maxe"lərdən olub. Yaşından çox böyük düşüncəyə, həyat eşqinə malik Əmrah qardaşına deyirmiş ki, mən şəhid olacam - bu, həm də arzumdur, amma torpaqlarımız azad ediləcək, ürəyimə damıb! Məndən sonra qürur duyacaqsız: "...ay ana, sən nə danışırsan? Evə qayıtmaq nədi?! Biz əsgər yoldaşlarımızla nəzir qoymuşuq ki, kaş, müharibə başlasın. Biz son damla qanımıza qədər düşmənlə vuruşacağıq. Bir də, ay ana, Vətən yolunda ölməyin, şəhid olmağın nəyi pisdir ki?! Sən gedirsən, Vətən, torpaq isə düşməndən xilas olunur, azad nəfəs alır. Müqəddəs torpaqlarımız uğrunda həlak olmaq şərəfdir, ana! Mən heç uf demədən şəhid olacam, mənə halallıq ver, məni geriyə gülərüzlə yola sal!.."

Bu vətənpərvərlik hissləri ilə deyilən fikirlər Əmrahın sonuncu dəfə anasına baş çəkməyə gələndə söylədiklərindəndir.

Kitabın bədii boyalarla qələmə alınması ilə yanaşı, texniki tərtibatı da diqqətdən kənarda qalmayıb. Kitabın dolğunluğunu artıran əsas məqamlardan biri də Birinci və İkinci Qarabağ savaşlarında Ağcabədi rayonunun istər qazilərinin, istərsə də şəhidlərinin adlarının kitabda öz əksini tapmasıdır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin**
**Maddi-Texniki Təminat Baş İdarəsi mebel və inventarların satın alınması məqsədilə**
***təkliflər sorğusu elan edir***

Maraqlanan təşkilatlar (012) 562-83-15 nömrəli telefonla əlaqə saxlaya bilərlər.
Təkliflər sorğusu 15 aprel 2021-ci il saat 12:00-da keçiriləcəkdir.
İştirak etmək üçün sənədlər 14 aprel 2021-ci il saat 17:00-dək qəbul olunur.
**Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161**

***Tender komissiyası***

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
***açıq tender elan edir***

Azərbaycan Respublikasının Mərkəzi Bankı Banklararası Kart Mərkəzinin arxitekturasında istifadə olunan mənəvi və fiziki cəhətdən köhnəlmiş texniki platformanın yenilənməsi məqsədilə mal və xidmətlərin satın alınması ilə bağlı açıq tender keçirir.
Tender proseduru 26 may 2021-ci il tarixdə saat 15:00-da Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.
Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:
- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
- *iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 12 iyul 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (Əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *Bakı şəhərində servis xidmətinin mövcudluğunu təsdiq edən məlumat;*
- *iddiaçının müvafiq sahədə korporativ müştəriləri və son 2 (iki) il üzrə iş təcrübəsini (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu daxil olmaqla) əks etdirən məlumatlar;*
- *iddiaçının təklif olunan malların satılmasına müvəkkil edildiyini təsdiq edən Avtorizasiya forması (Manufacturer Authorization Form);*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 25 may 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 17 may 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.
İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının aşağıdakı hesabına 500 (beş yüz) manat məbləğində vəsait köçürməlidirlər:
**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Hesab №: AZ25NABZ01701190000000001944**
**M/h: AZ74NABZ01451700000000001944**
**Kod: 501004**
**VÖEN: 9900071001**
Xarici iddiaçılar iştirak haqqını ödəniş gününə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər:
**Correspondent Bank: FRNYUS33, Federal Reserve Bank of New York**
**corr. account number: 021088221 AZER**
**account №: AZ25NABZ01701190000000001944**
Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.
Texniki avadanlıqlar, standart proqram təminatı lisenziyaları və xidmətlər tender üzrə satınalma müqaviləsi imzalandığı gündən ən geci 8 (səkkiz) ay ərzində təhvil verilməlidir.
Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.
Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin Əsas şərtlər toplusunu əldə edə bilər. Tender üzrə əlaqələndirici şəxs: Fuad Səbziyev (Ödəniş sistemləri və hesablaşmalar departamentinin əməkdaşı). Telefon: 493-11-22 (177), faks: 493-55-41, elektron poçt ünvanı:fuad_sabziyev@cbar.az.

***Tender komissiyası***

Şəhid övladı

# Atam Zəfərimizdə yaşayır

"Artilleriyanın atası", əsgərindən öncə döyüşə atılan komandir və bitməyəcək İlqar Mirzəyev nisgili…





**"Bəzən bir baxışımızla nə demək istədiyimizi bilər, həmişə zarafatlaşar, deyib gülərdik. Ən xoşbəxt günlərimiz, ata yanımıza gələndə olardı. Onsuz çox darıxıram... Tamam fərqli insan idi..."**
**... Söhbətə çətinliklə başladı. Hiss olunurdu ki, atası barədə danışmağa məmnuniyyətlə razılıq versə də, bunu etmək elə də asan deyil...**

"Şəhid övladı" layihəsində həmsöhbətimiz 2020-ci il iyul döyüşlərində ön xətdə şəhid olan polkovnik, Azərbaycanın Milli Qəhrəmanı İlqar Mirzəyevin oğlu Elvin Mirzəyevdir. O, 1999-cu ildə anadan olub, hazırda BSU-da IV kursda təhsil alır, həm də "Yaşat" fondunun əməkdaşıdır.



## Həyat qəhrəmanı

Ailəni dörd möhkəm sütun üzərində dayanmış tikiliyə bənzətsək, onun dayanıqlığı həmin o sütunlardan asılıdır təsəvvürü yaranır. O da var ki, sütunlar özləri hansı bünövrədən güc alır...

Həyatımızda rast gəldiyimiz misallar var - bəzən o sütunlardan biri, bəlkə də əsası tərk edir mövqeyini... Əgər qalan üç sütun binanı eyni səviyyədə dayanıqlı saxlaya bilirsə, demək bünövrə düzgün olub. Biri o birindən asılı olmayıb, hər biri güclü təməl üstündədir.

Şəhidlərin ailələri də əsasən belə özüllü binlara bənzəyir, əsas sütunsuz da möhkəm dayanır. Demək, ailə başçısı yalnız müharibə qəhrəmanı deyil, həm də həyat qəhrəmanıdır. Sadəcə qəhrəmandır...

Elvin danışdıqca adamın xəyalı onun verdiyi süjet xətti ətrafında beləcə dolanıb qayıdır. O, indi tamam fərqli dünyadadır - atalı dünyada...

## Qan qusdurdu düşmənə, od yağdırdı başlarına…

- Atam çox səmimi, savadlı, tədbirli adam, əsl hərbçi idi. Hələ saymadığım neçə gözəl xüsusiyyətlər onda cəmlənmişdi. Dürüst adam idi, uşaqla uşaq, böyüklə böyük... Hər kəs onu çox istəyirdi. Hər Bakıya gələndə qohum əqraba, dost-tanış onu qonaq çağırar və yaxud bizə toplaşardılar.

Atamla dost idik. Onu çox az görərdik. Düzdür, bütün asudə vaxtını bizimlə keçirirdi, amma zabitin asudə vaxtı az olur axı... Bəzən adamlar təskinlik verirlər ki, fəxr et, atan şəhiddir. Əlbəttə fəxr edirəm, ancaq onunla bağlı xatirələr, keçirdiyimiz günlər, danışıqları, gülüşü, səmimi söhbətləri yadıma düşdükcə, gözlərim önündə canlandıqca çox çətin olur, darıxıram...

*Danışır, hiss edirsən ki, dedikləri gözləri qarşısında həm də canlanır. Başını aşağı salıb danışsa da, hərdən gözlərini qaldırıb başımızın üstündən uzaqlara baxır, doluxmuş gözləri parıldayır. Atasını qarşısında görürmüş kimi... "Niyə ona artilleriyanın atası deyirdilər" - sualı ilə xəyallarından ayırmalı oluruq.*

- Aprel döyüşlərindən sonra belə deməyə başladılar. Döyüşlərdə göstərdiyi şücaətə və ixtisasını mükəmməl bildiyinə görə... Hələ də hərbçi dostları deyirlər ki, onun kimi peşəkar artilleriyaçının yetişməsi çox zaman tələb edir. Eyni qəhrəmanlığı ölümünə qədər göstərdi, qan qusdurdu düşmənə, od yağdırdı başlarına...

## İdeal insan idi

*"Atanı nə vaxtdan tanımağa başladın" sualı onun üçün gözlənilməz olmadı. Dərhal "sanki 100 illərdi tanıyırdım onu", - dedi...*

- Çox gec-gec görürdük onu, bayramlarda, tətillərdə biz gedərdik onun yanına çox vaxt... O da vaxt tapan kimi bizi xidmət etdiyi yerlərdə görməli, mənzərəli yerlərə aparırdı. Bizdən ayrılmaq istəmirdi.



Əyləncəli, maraqlı, ən xoş anlarımız həmin günlər olardı. Həyatda hər şeyi ondan öyrənmişəm. Vətənpərvərlik, cəsurluq, mərdlik, savadlı olmaq... Tarixi, fizikanı, riyaziyyatı çox sevirdi. Deyirdi qalan bütün elmlərin açarı dəqiq elmlərdədir. Yəqin artilleriyaçı olduğuna görə də dəqiq elmləri daha çox sevirdi. Mən isə daha çox humanitar fənlərlə maraqlanırdım.

İdeal insan idi. İstənilən mövzuda müzakirələrimiz olurdu. Çox savadlı idi, hansı mövzuda söhbət olsa, o haqda maraqlı fikirləri olurdu. Müzakirə vaxtı mükəmməl dinləmək bacarığı vardı. Mən bəzən çox danışardım bildiyim mövzuda. Atam isə yorulmadan dinləyərdi. Həyatsevər idi, şən, eyni zamanda çox ciddi...

Əsl hərbçi siması vardı. Öz peşəsinə, işinə məsuliyyətsiz yanaşan insanları xoşlamazdı. Xüsusən də əgər o insan hərbçidirsə... Bacardığını, bildiyini öyrədərdi əsgərlərə, zabitlərə... Yaxşı müəllim idi. Savadına, öyrətmə qabiliyyətinə görə əsgərdən tutmuş yüksəkrütbəli zabitlərə kimi hər kəs ona hörmət edərdi. Atam çox bədii dildə danışardı, bütün mədəniyyətli insanlar kimi... Səliqəli adam idi.

Yaxşı xüsusiyyətləri var idi, danışdıqca bitməz. 4 dil bilirdi, bizə də deyərdi ki, dil öyrənin, nə qədər dil bilsən, o qədər insansan. Mənə hər zaman deyərdi ki, Elvin, hərbçinin işi həkiminkindən daha çətin və məsuliyyətlidir. Soruşurdum niyə? Deyərdi həkimin səhvi ilə bir insan, hərbçinin bir səhvi ilə isə bir neçə insan həyatını itirə bilər. Buna görə də, hərbçi gərək daha dəqiq olsun.

Seçdiyim ixtisas üzrə peşəkar olmağımı istəyirdi. Olacağam, ona söz vermişəm. O kənarda olsa belə, həmişə yanımda hiss edərdim onu, indi də elədir. O vaxtlar davranışıma baxıb, əlini kürəyimə vurub deyərdi, səninlə qürur duyuram, aslan oğlum. Bacıma da eyni münasibəti vardı. Heç vaxt bizim aramızda fərq qoymadı. Onun qadına münasibətini anama, bacıma münasibətindən bilirdim. Çox həssas yanaşırdı...

## O günü, taleyi dəyişmək üçün nələr verməzdim…

- O hərb üçün yaranmışdı. Atamın hər kəlməsi mənim üçün önəmli olub, böyük əhəmiyyət kəsb edib. Hər zaman mənim qərarlarımla razılaşardı. Heç vaxt istəklərimə, qərarlarıma zidd getməzdi. Bizi ərköyün böyüdürdü. Qoymazdı bir an belə çətinliyə düşək.

Son dəfə onunla görüntülü danışmışdıq. Heç vaxt unutmayacam o günü. İyunun 11-i idi. Səhəri gün döyüşlər başladı. Dərslərim barədə soruşdu. Xeyli danışdıq, amma çox yorğun görünürdü. Bilirdim atamın işini, fərqində idim. Ancaq bizdə elə təəssürat yaratmışdı ki, ona heç nə olmaz, sanki bizim üçün o ölümsüz idi. Həmin ayın 13-ü gecə heç demək olar ki, yatmadım. Nə isə narahat idim, gözüm telefonda idi, xəbərləri izləyirdim. Səhəri bəd xəbər gəldi. Onu dostum xəbər verdi mənə. Dünya başıma yıxıldı. İnanmağım gəlmirdi. Aləm dəydi bir-birinə... Elə bilirdim yuxudu, oyanmaq istəyirdim. O günü, taleyi dəyişmək üçün nələr verməzdim...

## Atamın qisası alındı

*Elvin Mirzəyev indi atasının yarımçıq qalan yolunu davam etdirir. "Yaşat" fondunda şəhid ailələrinə və qazilərə xidmət göstərir. Hər gün onlarla özü kimi şəhid övladları-həmdərdliləri ilə ünsiyyətdə olur. Dərdi bir idisə, ikiyə, üçə vurulur, amma təsəllisi odur ki, onlara bacardıqca kömək edə bilir.*

- Atam üçün çox darıxacam, onu çox axtaracam, hər zaman səsləyəcəm və köməyə çağıracam. Qürurluyam və atamın bütün arzularını yerinə yetirəcəyimə əminəm. Mənə nə demişdisə, onu edəcəm. Ən əsası onun adını hər zaman uca tutacam, hər zaman adını yaşadacam. Gözlərim qarşısında atamın iri bir portreti əbədi asılıb. Zəhmli, eyni zamanda mülayim, gülərüz...

Atam haqqında çox danışa bilərəm. Ölümü hamını sarsıtdı. Bir əsgəri deyirdi ki, Aprel döyüşlərində hərbi hissə komandiri İlqar Mirzəyev əsgərlərlə birlikdə topa mərmi yükləyib atırdı. Bir əsgəri deyirdi ki, İlqar Mirzəyev bizdən qarşıda irəliləyib, "arxamca gəlin, nə olsa birinci mənə olsun" - deyirdi. Belə adam idi atam, ali insan, peşəkar zabit...

Amma böyük təskinliyim var: atamın qisası alındı, atam Zəfərimizdə yaşayır...

Elvin Mirzəyevlər çoxdur bugünkü reallığımızda. Tale kiçikli-böyüklü onların çiyinlərinə elə bir ağır məsuliyyət qoyub ki, daşımağa yaşları çatmasa da, gücləri çatacaq. Bu gücü onlara şəhid atalarının ruhu, bir də bizlər verəcəyik, onları sevən, dəstək olan, öz balalarımızdan ayırmayanlar...

Nə yaxşı ki, şəhidlərimizin ruhu qarşısında üzümüz ağdır, Qarabağ azaddır...

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# Koronavirusdan xilas olmaq üçün mübarizə davam edir

*Əvvəli 1-ci səh.*

Distant tədris zamanı dərslər “Virtual məktəb”, eləcə də digər onlayn platformalar üzərindən keçirilir. Bundan başqa, şagirdlərə “Dərs vaxtı” teledərsləri izləmək tövsiyə edilir.

Ümumtəhsil müəssisələrində artıq müəllim və texniki heyətin martın ilk həftəsindən vaksinasiya prosesinə başlanılıb. Təhsil Nazirliyindən tədris prosesinin səmərəli təşkili üçün müəllim, eləcə də texniki heyətin vaksinasiya prosesində iştirakının zəruri olduğu bildirilib.

Həmçinin Təhsil Nazirliyi ictimaiyyətə sanitariya-gigiyena qaydalarına əməl etməyi, maska taxmaqla və sosial məsafəni gözləməklə COVID-19 virusundan qorunmağı bir daha tövsiyə edib. Təhsil Nazirliyinin martın ortalarından başlayaraq koronavirusa yoluxma sayının artmasının 5 şəhər və rayonda distant təhsilə keçirilməsi ilə bağlı qərar verməsinə səbəb olduğunu diqqətə çatdıran Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva vurğulayıb: “Artıq distant təhsillə əlaqədar müəyyən ənənələr var. Əyani təhsilə keçid mərhələsinin nə zaman olması barədə dəqiq məlumat verməsək də, arzulayaq ki, bu tez bir zamanda həyata keçirilə bilsin”.

Mehriban Vəliyeva Bakı məktəbləri üzrə ümumilikdə 1086 şagird və 695 müəllimin koronavirusa yoluxduğunu açıqlayıb. Qeyd edib ki, onlardan 739 şagird və 466 müəllim son 14 gündə koronavirusa yoluxub: “Buna görə də düşünürəm ki, qəbul edilən qərar doğrudur”.

Qeyd edək ki, Azərbaycanda bütün sahələrdə vaksinasiya prosesi uğurla davam etdirilir. Dövlətimizin səyi və vətəndaşlarımızın fəallığı sayəsində peyvənd olunanların sayı artmaqdadır. Ölkədə koronavirusa yoluxma və ölüm sayının artdığı bu günlərdə vətəndaşlardan da daha diqqətli və məsuliyyətli olmaq tələb olunur. Ancaq tez-tez bunun əksini görürük. Təəssüfedici məqamlardan biri də polis əməkdaşları tərəfindən ölkə ərazisində, demək olar ki, hər gün aktiv koronavirus xəstəsinin ictimai yerlərdə aşkar edilərək saxlanılmasıdır. Polis əməkdaşları onlarla izahedici söhbətlər aparır, tibbi prosedurları gözləməklə yaşadıqları evə qaytarır və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılır. Bəziləri barəsində hətta Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılır. Amma vətəndaşlar arasında öz məsuliyyətini başa düşmək və yerinə yetirmək istəməyənlər yenə də olur.

Bütün dünyada isə bu günlərdə koronavirusdan xilas olmaq üçün tədqiqatlar, araşdırmalar davam etdirilir. Belə bir vaxtda koronavirusun yeni növlərinin meydana çıxması təəssüf doğurur. Son məlumata görə, ABŞ-da koronavirusun Hindistan ştammına yoluxma qeydə alınıb. Bu barədə “San Francisco Chronicle” məlumat yayıb. Bildirlib ki, yoluxma Kaliforniyada aşkarlanıb. Mütəxəssislər ehtimal edirlər ki, daha yeddi nəfər də həmin ştamma yoluxub.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, koronavirusa yalnız insanlardan deyil, ev pişiklərindən, itlərdən də yoluxmaq mümkündür. “RİA Novosti”nin məlumatına görə, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Rusiyadakı nümayəndəsi Melita Vuynoviç bununla bağlı açıqlama verib. O deyib: “COVID-19 virusu əsasən insandan insana yoluxma yolu ilə yayılır, ancaq zoonoz virus olduğu üçün insan-heyvan kanalı ilə yoluxma sübutları var. Aralıq bənd hələ müəyyən edilməyib”.

Məlumata görə, it və pişiklərdən əlavə, insanlar həmçinin su samurları, Ussuriya yenotu, şir və pələngləri də koronavirusa yoluxdura bilərlər.

Elm adamları isə virusun digər heyvan növlərinə də təsirini araşdırmağa davam edirlər. COVID-19 xəstəliyinin ev heyvanları (it və pişik) arasında yayılmasının araşdırılması istiqamətində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu tərəfindən elmi-tədqiqat işlərinə başlanılıb.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən layihənin COVID-19 törədicisinin heyvanlar arasında yayılması səbəblərinin aşkarlanması və törədicinin ətraf mühitdə dövr etməsinin qarşısının alınması məqsədilə həyata keçiriləcək profilaktik tədbirlər baxımından böyük elmi əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Tədqiqat işlərinin gedişatına əsasən, COVID-19 testi pozitiv və ya şübhəli olan, insanlarla sıx təmasda olan, temperatur və kəskin respirator əlamətlər (yüksək temperatur, burun axması, öskürək, asqırma, pnevmoniya və s.) aşkar edilən, eləcə də son bir ay ərzində bu kimi əlamətlərin müşahidə olunduğu ev heyvanlarından nümunələr götürülür.

Mərhələli şəkildə həyata keçiriləcək layihə hazırda Bakı şəhəri və Abşeron rayonu ərazisində yerləşən baytarlıq klinikalarında müayinə olunan, həmçinin heyvan sığınacaqlarında saxlanılan it və pişiklərdən müvafiq nümunələrin (qan və yaxma) götürülməsi ilə davam etdirilir.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

# Myanmada xunta-xalq qarşıdurması kəskinləşir

## Ölkədə Vətəndaş müharibəsi başlaya bilər

**Fevralın 1-də Myanmada ordu 8 noyabr 2020-ci il seçkilərinin nəticələrinin saxtalaşdırılması bəhanəsi ilə legitim hökuməti devirib hakimiyyəti zəbt etdikdən sonra ölkədə xaos hökm sürür.**



Tətbiq olunmuş fövqəladə vəziyyət rejiminə baxmayaraq, hərbi xuntanın hərəkətlərinə etiraz əlaməti olaraq keçirilən kütləvi nümayişlər səngimir. Təhlükəsizlik qüvvələrinin etiraz aksiyalarına sərt müdaxiləsi insan tələfatına gətirib çıxarır.

Aprelin 1-də hərbçilər biraylıq atəşkəs elan etsələr də, nümayişçilər küçə və meydanlardan çəkilmirlər. Myanmada Siyasi Məhbuslara Yardım Assosiasiyasının verdiyi məlumata görə, təhlükəsizlik qüvvələrinin hərbi xuntaya və qanuni hökumətin üzvlərinin həbsinə etiraz aksiyalarına müdaxiləsi nəticəsində ölənlərin sayı 581-ə çatmışdır. Təkcə srağagün nümayişlərin dağıdılması zamanı 11 nəfər öldürülmüşdür. Eyni zamanda 2750 etirazçı hələ də həbsdədir, üstəlik, 463 nəfərin həbsinə order verilmişdir.

“The Irrawaddy” saytının verdiyi xəbərə görə, ordu bölmələri etiraz aksiyalarının iştirakçılarına qarşı əməliyyat keçirmək bəhanəsi ilə Kaçin ştatında kilsələrə basqın etmişdir. Hərbçilər Mohnin şəhərində kilsələrə soxularaq möminlərə hücum etmişlər. Bəzi kilsələrdə əsgərlər qapıları sındırmış, əmlaka ziyan vurmuşlar.

Myanmada cərəyan edən qanlı hadisələrə beynəlxalq ictimaiyyət tərəfindən təsirli reaksiya verilməmişdir. Hətta bu ölkədə baş vermiş dövlət çevrilişi BMT səviyyəsində pislənməmişdir. Bir sıra aparıcı dövlətlər legitim hakimiyyətin devrilməsini Myanmanın daxili işi kimi qiymətləndirmişdir.

Bununla belə, Myanmada davam edən faciəvi proseslərə biganə qalmayanlar da var. Ötən ayın əvvəllərində ABŞ hakimiyyət orqanları Myanmanın iki nazirliyinə - Müdafiə və Daxili İşlər nazirliklərinə qarşı sanksiyalar tətbiq etmişdir. Qara siyahıya Myanma ordusunun nəzarət etdiyi “Myanmar Economic Corporation” və “Myanmar Economic Holding Limited” şirkətləri də daxil edilmişdir. ABŞ Ticarət Nazirliyinin məlumatında deyilirdi ki, Birləşmiş Ştatlar Myanma xalqı ilə tam həmrəy olaraq qalır və dinc nümayişçilərə qarşı hərbi zorakılığı qətiyyətlə pisləyir. Nazirlik vurğulayırdı ki, ABŞ Administrasiyası dövlət çevrilişinin günahkarlarının məsuliyyətə cəlb olunmasını davam etdirəcək. “Röyter” Agentliyinin xəbərinə görə, Myanmada dövlət çevrilişindən sonra hakimiyyətə gələn xunta Nyu York Federal Ehtiyat Bankında saxlanılan təxminən 1 milyard dolları köçürməyə cəhd etmişdi. Lakin bu əməliyyat bloklanmışdır.

Yaxın vaxtlarda Avropa İttifaqının (Aİ) Myanma hərbi xuntasının üzvlərinə qarşı iqtisadi sanksiyalar tətbiq edəcəyi gözlənilir. Dövlət çevrilişinin 11 əsas təşkilatçısı, o cümlədən hərbi xuntanın rəhbəri barədə Aİ tərəfindən tədbirlər görülür. Məlumata görə, əvvəlki tədbirlərə indi Aİ səviyyəsində tətbiq olunacaq iqtisadi sanksiyalar əlavə edilir, çünki fərdi sanksiyalar qəbul etməyin mənası yoxdur. İqtisadi sanksiyalar Myanma hərbçilərinin iqtisadi maraqlarına qarşı yönəlmişdir. Eləcə də Myanmada hökumət proqramlarına Aİ səviyyəsində hər cür yardım dayandırılmışdır.

Amma çətin ki tətbiq olunan sanksiyalar Myanma hərbi xuntasını dayandıra bilsin. Dövlət çevrilişinin təşkilatçıları etiraz aksiyalarını, nəyin bahasına olursa-olsun, yatırmaqda israrlıdırlar. Bu səbəbdən dinc əhali arasında tələfatın bundan sonra da artacağı şübhəsizdir.

Myanmada siyasi müxalifətin paralel mülki hökumət və federal ordu qurmağa səy göstərməsi, ölkənin bir sıra etnik qrupları ilə hərbi xunta arasında açıq qarşıdurma fonunda vətəndaş müharibəsinin başlaması ehtimalı böyükdür. Dinc nümayişçiləri xuntadan müdafiə etmək üçün yaradılan federal ordu planını yalnız iki qruplaşma - “Kaçin İstiqlal Ordusu” (KIA) və “Karen Milli Birliyi” (KNU) dəstəkləmişdir. Digər etnik silahlı qruplaşmalar hələlik neytral mövqe tuturlar. Lakin siyasi müxalifət əmin edir ki, həmin qruplaşmalarla danışıqlar davam edir.

Etnik silahlı qruplaşmaların siyasi müxalifətə açıq dəstək verməsi hərbi xuntanın cəza tədbirləri görməsi ilə nəticələnir. Ordu artıq iki dəfə - ötən ayın 29-da və 31-də Karen ştatında KNU-nun nəzarət etdiyi bölgələrə aviasiya zərbəsi endirmişdir. Hərbi xuntanın belə reydləri davam etdirəcəyi və nəticə etibarilə silahlı qarşıdurmanın güclənəcəyi istisna olunmur.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

# BİLDİRİŞ

“Sumqayıt Kimya Sənaye Parkı” MMC tərəfindən sənaye parklarında yaşıllıqların salınması işlərinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 2 aprel 2021-ci il tarixli qərarına əsasən, “Yaşıl Vadi-RMP” MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

“Azərenerji” ASC tərəfindən 29 oktyabr 2020-ci il tarixdə elan edilmiş kimya laboratoriyası üçün avadanlıqların satın alınması üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən “İENSOL” MMC tenderin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 271 518,00 (iki yüz yetmiş bir min beş yüz on səkkiz manat 00 qəpik) AZN məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Fransada yanğın: 155 nəfər təxliyə olunub

Fransanın cənubunda yerləşən Marsel şəhəri ətrafında baş vermiş yanğın nəticəsində 155 nəfər təxliyə edilib. Təxliyə edilənlər müvəqqəti olaraq idman kompleksinin binasında yerləşdirilib.

Marselin Yanğından Mühafizə Xidmətindən verilən məlumata görə, hadisə La Buyadis kommunası yaxınlığında baş verib. Saatda 80 km sürətlə əsən külək nəticəsində yanğın Oryol kommunasındakı yaşayış məntəqələrinə yayılıb.

Meteoroloqların proqnozlarına görə, külək cümə axşamına qədər sakitləşməyəcək və nəticədə yanğın sahəsi artacaq.

Məlumatda o da bildirilir ki, yanğını söndürmək üçün 6 təyyarə və 95 yanğınsöndürmə briqadası cəlb edilib.

# BİLDİRİŞ

“Azərenerji” Açıq Səhmdar Cəmiyyəti Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları və su elektrik stansiyalarının tikintisi layihəsi çərçivəsində görüləcək işlərin smeta xərclərinin hesablanması, işlərin icra qrafiki, ehtimal olunan qiymətin müəyyən edilməsi məqsədilə məsləhətçi xidmətlərin satın alınması məqsədilə təkliflər sorğusu elan edir. İştirak etmək istəyən iddiaçılar öz sənədlərini 13 aprel 2021-ci il saat 10:00-dək “Azərenerji” ASC-nin Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanında yerləşən inzibati binasına təqdim etməlidirlər.

***Tender komissiyası***

# “Azərsu” Açıq Səhmdar Cəmiyyəti
## *açıq tender elan edir*

**“Azərsu” ASC-nin daxili vəsaiti hesabına vətəndaş məmnuniyyətinin, operativliyin, şəffaflığın və ASAN indeks standartlarının təmin edilməsi məqsədilə müasir standartlara uyğun “Qəbul Mərkəzi”nin yaradılması üçün tikinti-quraşdırma işlərinin və zəruri avadanlıqların satın alınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına və texniki tələblərə cavab verməlidirlər. İddiaçılar 500.00 (beş yüz) manat məbləğdə iştirak haqqını (ASAN ödəniş vasitəsilə) aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək lazımdır.

Əlaqələndirici şəxs- “Azərsu” ASC-nin Satınalmaların təşkili şöbəsinin rəisi İlqar Tağıyev, tel: 431-47-67/1033 və şöbə rəisinin müavini İntizam Novruzov, tel: 431-47-67/ 3019, **e.mail:intizam.novruzov@azersu.az**

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W.I.F.T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;*
- *iddiaçının son 1 (bir) ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq İ və İİ məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya);*
- *iddiaçının əsas podratçı kimi ümumi tikinti işləri üzrə son 3 ili əhatə edən uğurla yerinə yetirilmiş ən azı 2 müqavilə üzrə işlərin uğurla icra edildiyini təsdiq edən sənəd;*
- *iddiaçının işçi heyətində hər bir mütəxəssisin ən azı 5 il ardıcıl təcrübəyə malik işçi heyətinin (layihə rəhbəri, tikinti rəhbəri, memar, SƏTƏM üzrə mütəxəssis, elektrik quraşdırma işləri üzrə mütəxəssis, mexaniki quraşdırma işləri üzrə mütəxəssis) olmasına dair təsdiqedici sənədlər.*

Podratçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 30.04.2021-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 11.05.2021-ci il saat 17:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 12.05.2021-ci il saat 17:00-da həyata keçiriləcəkdir.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı predmetlər üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir:

**LOT 1:** Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin və müvafiq sahəyə uyğun zəruri mal-materialların satın alınması

**LOT 2:** Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınması

**LOT 3:** Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən mərkəzi ofisi üçün 2 ədəd 30 kVA gücündə elektrik tənzimləyicisinin və Yevlax və Quba şəhərlərində yerləşən Ərazi İdarələri binalarında istismar olunan UPS avadanlıqları üçün akkumulyatorların və onların quraşdırılması işlərinin satın alınması

**LOT 4:** Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasının server otağında yanğın təhlükəsizliyi ilə bağlı işlərin və mal-materialların satın alınması

**LOT 5:** Azərbaycan Respublikası Mərkəzi Bankının balansında olan nəqliyyat vasitələrinə texniki xidmətin satın alınması

Tender proseduru 07 may 2021-ci il saat 15:00-da Dövlət satınalmalarının vahid internet Portalında (https://etender.gov.az/) (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlı şəxslər tenderdə iştirak etmək üçün “ASAN ödəniş” sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına hər bir iştirak edəcəyi LOT üzrə 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə Əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod :501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 25 iyun 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **06 may 2021-ci il saat 18:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **28 aprel 2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı:

LOT 1-in 1 nömrəli cədvəli üzrə: 01.09.2021-ci il tarixdən;
LOT 2 üzrə: 01.10.2021-ci il tarixdən;
LOT 1-in 2 nömrəli cədvəli, LOT 3, LOT 4 və LOT 5 üzrə: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təqdim edilməsi və xidmətlərin göstərilməsi (işlərin görülməsi) müddəti:

LOT 1-in 1 nömrəli cədvəli, LOT 2 və LOT 5 üzrə: dövri olaraq 1 (bir) il müddətində;
LOT 1-in 2 nömrəli cədvəli, LOT 3 və LOT 4 üzrə satınalma müqaviləsi imzalandığı gündən 60 (altmış) təqvim günü müddətində.

Qiymətləndirmə meyarları:

LOT 1 və LOT 2 üzrə: maliyyə və texniki amillər (əməkdaşların peşəkarlığı, maddi-texniki baza və iş təcrübəsi);
LOT 3 və LOT 4 üzrə: maliyyə və texniki amillər (əməkdaşların peşəkarlığı, maddi-texniki baza, iş təcrübəsi, zəmanət müddəti və zəmanət şərtləri);
LOT 5 üzrə: maliyyə və texniki amillər (maddi-texniki baza, əməkdaşların peşəkarlığı və korporativ müştərilərə xidmət (oxşar işlər üzrə korporativ müştərilərin sayı)).

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

# BİLDİRİŞ

“Sumqayıt Kimya Sənaye Parkı” MMC tərəfindən “Demirchi Tower” də yerləşən ofisində informasiya kommunikasiya şəbəkəsinin infrastrukturunun genişləndirilməsi işlərinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 2 aprel 2021-ci il tarixli qərarına əsasən, “Bravo Technologies” MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi 2021-ci il üçün nəzərdə tutulan dəftərxana ləvazimatlarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 900 (doqquz yüz) AZN**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:**
**Təşkilatın adı:**
**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri:**
**"Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**H/h: AZ16AIIB38060029440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. AIIBAZ2X**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış;*
- *rekvizitlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12 may 2021-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **24 may 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **25 may 2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Açıq tenderin Əsas şərtlər toplusunu 08 aprel 2021-ci il saat 11:00-dan sonra əldə etmək olar. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərişıq" ASC Abşeron rayonu, Novxanı qəsəbəsi ərazisində yerləşən mövcud 35/6 kV-luq 1x10 MVA gücündə 143 saylı yarımstansiya əvəzinə yeni 35/6 kV-luq 2x10 MVA gücündə yarımstansiyanın tikintisi və avadanlıqların quraşdırılması işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:
**LOT - 1. Abşeron rayonu, Novxanı qəsəbəsi ərazisində yerləşən mövcud 35/6 kV-luq 1x10 MVA gücündə 143 saylı yarımstansiya əvəzinə yeni 35/6 kV-luq 2x10 MVA gücündə yarımstansiyanın tikintisi və avadanlıqların quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satrnalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödəniş etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 400 (dörd yüz) manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
Əlaqələndirici şəxs - Namiq Heybətov
Əlaqə telefonu (şəhər): (012) 440 39 93 (daxili 92-19)
elektron poçt: namiq.heybetov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir. (İri sahibkarlıq subyektləri qanuna əsasən, elektron Portal vasitəsi ilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Vergi Bəyannaməsi); (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *müvafiq işlər üzrə lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **29 aprel 2021-ci il saat 12:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07 may 2021-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **11 may 2021-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Hüquqi və digər sənədlərin yalnız əsli, əsli olmadığı halda surəti notarial qaydada təsdiq olunmalıdır (xarici iddiaçılar hüquqi sənədləri apostille etdirərək). Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi koronavirus (COVID-19) xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi xidmətinin

### *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (+99412) 4977134 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 08.04.2021-ci il saat 09:00 tarixdən 15.04.2021-ci il saat 15:00-dək qəbul olunur.

**Ünvan: AZ 1009, Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85**
**Telefon nömrəsi: (+99412) 4977134**
**e-mail: shahin.gubadov@sosial.gov.az**

***Tender komissiyası***

## DEADLİNE EXTENSİON
## REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ

**Assignment Title: Selection of International Individual Consultant on Veterinary Laboratories' Compliance with the Accreditation Standards and Strengthening of Animal Health and Veterinary Systems Reference No. AZ-AACD-218368-CS-INDV-A1/CS-15/AV**

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:

(i) *Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: support: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*
(ii) *Component B - Agri-food value chain development. The activities will be structured into two sub-components: (i) Investment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*
(iii) *Component C - Financial services to agribusiness.*
(iv) *Component D - Project Management.*

**The general objective**

The objective of the assignment is to facilitate AFSA (Azerbaijan Food Safety Agency) become capable to effectively perform the analytical part of official control.

The specific objective is to strengthen animal health and veterinary systems of AFSI.

Brief description of scope of works are as follows:

(i) Conduct a **Diagnostic Analysis** of the existing laboratories in the field of veterinary/animal health and readiness for international accreditation (Assess the veterinary laboratories in terms of compliance with the accreditation standard (ISO/IEC 17025); laboratories staff's knowledge and skills; Technical support for veterinary laboratories for international accreditation (DAKK) and etc.)
(ii) **Capacity building:** identification of the training needs and training plan for capacity building of the laboratory staff in the area of vet/animal health the vet laboratories;

**Duration of the assignment:**
It is estimated that a total input of forty (40) work/days will be required, deployed in several missions on site during the period March - June 2021. The first mission to Azerbaijan is scheduled for March 2021.
Consultant will work closely with the staff of AFSA, including AFSI and central and regional laboratories. Assignment will be mainly Baku-based.

**The shortlisting criteria are:**

- M.Sc. or preferably Ph.D Degree in Veterinary Medicine or a laboratory field (e.g. virology, microbiology etc.);
- Track record of at least 5 years of professional and/or academic experience in accredited veterinary laboratory and/or administration of accredited veterinary laboratories;
- Excellent command of English (written and spoken), IT literacy.
- Previous experience with World Bank-funded projects and understanding of its requirements is preferable
- Documented track record in drafting strategic documents;
- Good inter-personal communication skills.

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants under İBRD Loans and İDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interests.
A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by April 22, 2021.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**1965, Z.Bunyadov avenue, Chinar Park Biznes Center, AZ1075, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail: anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com; nargiz.acip@gmail.com n.isgandarova@akia.gov.az**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00.

## MARAQ MƏKTUBLARININ QƏBUL EDİLMƏSİNƏ DAİR ELAN

(MƏSLƏHƏT XİDMƏTLƏRİ)

Azərbaycan Respublikası
Məşğulluğa Dəstək Layihəsi
Layihənin İD №: P171250
Tapşırığın adı: Təlimçilər üçün təlim keçirilməsi üzrə Ustad Təlimçi (Master Trainer) üçün Məsləhət Xidməti
İstinad Nömrəsi. (Satınalma Planına uyğun olaraq): AZ-MLSPP-227975-CS-INDV

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsini həyata keçirmək məqsədilə Dünya Bankından cəlb edilən maliyyə vəsaitlərinin bir hissəsini məsləhət xidmətlərinin satın alınmasına yönəltmək niyyətindədir.

Məsləhət xidmətləri ("Xidmətlər") ÖMP üzrə biznes təcrübələrin gücləndirilməsi və təlim proseslərinin qiymətləndirilməsi üçün istifadə olunan BƏT-in hazırki "Öz biznesini yarat və təkmilləşdir" (ÖBYT) tədris modulu üzrə təlimçilər üçün təlimlərin (TT) təşkili, o cümlədən TT təşkilindən sonra təlim keçirilmiş təlimçilərin 6 ay monitorinqi daxildir. Ustad təlimçi COVID-2019 pandemiyası ilə vəziyyəti nəzərə alaraq TT üzrə təlimlərin onlayn rejimində təşkil edilməsinə hazır olmalıdır.

Ətraflı Texniki Tapşırıq ilə aşağıdakı linkdən tanış olmaq olar: **https://drive.google.com/file/d/1ITa-aq89gp1PFVPR_1tyb3DiRVhQYJj4v/view?usp=sharing**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi, uyğun mütəxəssisləri ("Məsləhətçi") xidmət göstərməkdə maraqlı olduqlarını bildirmək üçün dəvət edir. Maraqlanan mütəxəssislər öz CV formalarını təqdim etməlidirlər.

Maraqlı olan Məsləhətçilərin diqqəti Dünya Bankının, 2017-ci il noyabr və 2018-ci il avqust aylarında yenidən baxılmış ("Satınalma Qaydaları"), iyul 2016-cı il tarixli "İLM üzrə Borcalanlar üçün Satınalma Qaydaları" sənədinin Bölmə III, 3.14, 3.16 və 3.17-ci bəndlərinə yönəldilir ki, bu da Dünya Bankının maraqların toqquşmasına dair siyasətini təyin edir.

Məsləhətçilərin seçim prossesi, Satınalma Qaydaları sənədinin Bölmə VII, 7.34-7.37-ci bəndlərinə uyğun olaraq Fərdi Məsləhətçilərin Açıq Rəqabətli Seçimi metoduna uyğun olaraq seçiləcəkdir.

Əlavə məlumatı iş saatı ərzində (bazar ertəsi-cümə günləri saat 09:00-dan 18:00-a kimi) aşağıda göstərilən ünvandan əldə etmək olar.

Maraq məktubları 28 aprel 2021-ci il tarixədək aşağıdakı ünvanlara (şəxsən, məktub şəklində, faks və ya elektron poçt vasitəsilə) göndərilməlidir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi**
**Kimə: Hüseynqulu İsmayılov, Satınalma üzrə mütəxəssis**
**AZ1100, Nazim Hikmət 27, Rich Plaza, giriş №-1, 2-ci mərtəbə**
**Bakı, Azərbaycan**
**Tel.: (994 12) 5253449 E-mail: huseyngulu.ismayilov@esp.az**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi texnika avadanlıqlarının satın alınması məqsədilə

### *təkliflər sorğusu elan edir*

Maraqlanan təşkilatlar (012) 562-83-15 nömrəli telefonla əlaqə saxlaya bilərlər.
Təkliflər sorğusu 15 aprel 2021-ci il saat 15:00-da keçiriləcəkdir.
İştirak etmək üçün sənədlər 14 aprel 2021-ci il saat 17:00-dək qəbul olunur.
**Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədova atası

**BABA MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmə sədrinin müşaviri Çingiz Məmmədova əzizi

**SƏXAVƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "2 №-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC-nin direktoru Rəşadət Eyvazova qızı

**LAMİYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova bacısı

**AĞAZADƏ ALCANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5107
Sifariş 617
Qiyməti 40 qəpik